**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ADİL KAMIL oğlu ADİLOV**

# AZƏRBAYCAN-PAKİSTAN MÜNASİBƏTLƏRİ (2003-2020)

**HSM-050213- Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

Elmi rəhbər : *S. Ə. İmanova*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Bakı – 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ** ........................................................................................................... 3
**I FƏSİL. AZƏRBAYCAN - PAKİSTAN ƏLAQƏLƏRİNİN ƏSASLARI** ....... 8
1.1. Azərbaycan – Pakistan əlaqələrinin nəzəri-konseptual əsasları və münasibətləri şərtləndirən amillər ........................................................................................... 8
1.2. Azərbaycan – Pakistan münasibətlərinin hüquqi-siyasi aspektləri ................. 14
**II FƏSİL. AZƏRBAYCAN - PAKİSTAN MÜNASİBƏTLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ** ........................................................................................ 23
2.1. Strateji tərəfdaşlıq münasibətlərinin formalaşması ......................................... 24
2.2. Müdafiə, hərbi-texniki sahədə əməkdaşlıq ..................................................... 33
2.3. İqtisadi-ticarət və mədəni sahələrdə münasibətlərin formalaşması və inkişafı 37
**III FƏSİL. AZƏRBAYCANLA PAKİSTAN ARASINDA ÇOXTƏRƏFLİ ƏMƏKDAŞLIQ MEXANİZMLƏRİ** ............................................................... 48
3.1. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində qarşılıqlı münasibətlər ................... 48
3.2. İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq ................................. 52
3.3. Azərbaycan – Türkiyə – Pakistan formatının yaranması və perspektivləri..... 57
**NƏTİCƏ ........................................................................................................ 67**
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ........................................... 70**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında dərin tarixi köklərə malik əlaqələr mövcuddur. Səfəvilər dövləti zamanında qurulan iqtisadi münasibətlər müasir dövrdə müstəqil Azərbaycan və Pakistan respublikaları arasında iqtisadi, siyasi, sosial, mədəni sahələrdə uğurla davam etdirilir.

Uzun illərdir davam edən çoxtərəfli əlaqələr son illər xüsusən hərbi və siyasi sahələrdə daha da inkişaf etmişdir. 44 günlük Vətən Müharibəsi zamanı qardaş Pakistan xalqı Azərbaycanın yanında oldu və öz mənəvi və siyasi dəstəyini nümayiş etdirdi.

1991 - ci il oktyabrın 18 - də müstəqilliyini yenidən qazanan Azərbaycan Respublikası uğurlu və əlverişli daxili və xarici siyasət yürütmək istiqamətində addımlar atmağa başladı. Bu adımlar sırasında Cənubi Asiya regionu dövlətləri ilə əlaqələrin yaradılması xüsusi yer alırdı. Asiya qitəsinin mühüm aktoru olmaqla yanaşı, nüvə silahına malik olan Pakistan həm Asiya qitəsində, həm də müsəlman dövlətləri arasında güclü hərbi - geostrateji mövqeyə malikdir və bu baxımdan Pakistan ilə ikitərəfli münasibətlərin yaradılmasıhəm Azərbaycan, həm də Pakistan üçün vacibdir. ikitərəfli münasibətlərin yaradılması hər iki dövlətin milli maraqlarına xidmət edir.

Bu gün iki dövlət arasında olan münasibətlər hərbi - strateji müttəfiqlik səviyyəsindədir. Pakistanla Azərbaycan 1992 - ci il 9 iyun tarixində diplomatik münasibətlər yaratmış və Pakistan Türkiyə və Ruminiyadan sonra Azərbaycanın dövlət müstəqilliyini tanıyan 3-cü dövlət olmuşdur. Bu gün iki dövlət arasında çoxşaxəli münasibətlər beynəlxalq səviyyədə davam etdirilir.

Azərbaycanla Pakistan Dağlıq Qarabağ münaqişəsi və Kəşmir məsələsiilə bağlı beynəlxalq müstəvidə bir - birinə daim dəstək vermiş və qarşılıqlı strateji müttəfiqlik münasibətlərinə verdikləri əhəmiyyəti bir daha sübut etmişlər.

Bundan başqa, həm Azərbaycan, həm də Pakistan əlverişli geostrateji mövqeyə malik olmaqla həm mövcud olan, həmçinin gələcəkdə reallaşdırılacaq layihələrin mərkəzində yer tutur, hər iki dövlət müsəlman dünyasında mühüm rol oynayır. ABŞ ilə strateji partnyorluq münasibətlərinə malik olan Pakistan terrorizmlə mübarizədə ABŞ - ın regiondakı əsas müttəfiqlərindən biridir və hazırda dünya siyasətindəölnəmli rol oynamaqdadır. Azərbaycanın, dünyada kütləvi qırğın silahına və raket texnologiyasınamalik olan yeganə müsəlman dövləti olan, öz xarici siyasətində İslam faktoruna mühüm əhəmiyyət verən Pakistan ilə münasibətləri aktuallıq kəsb edən mövzudur.Azərbaycanın Türkiyədən sonra ikinci ən əsas strateji müttəfiqi olan Pakistan ilə münasibətlər həm dövlətlərarası, həm də beynəlxalq səviyyədə, xüsusən də BMT, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi mühüm təşkilatlar çərçivəsində uğurla davam etdirilir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Azərbaycan-Pakistan münasibətləri tədqiqatçıların diqqət mərkəzində olan və maraqla araşdırılan bir məsələdir. Müasir dövrdə Azərbaycan-Pakistan münasibətləri, xüsusən də 44 günlük Vətən Müharibəsi zamanı iki dövlətin hökumət və millət səviyyəösində daha da yaxınlaşması, Pakistn hökumətinin və xalqının dövlətimizə və xalqımıza verdiyi dəstək həm yerli, həm də xarici, əsasən pakistanlı tədqiqatçılar tərəfindən araşdırılmışdır.

Dissertasiya işi tədqiq olunan zaman Azərbaycan dilində "Heydər Əliyev və Şərq" (2005), Çingiz İsakın "Beynəlxalq münasibətlər tarixi" (2021), Əli Həsənovun "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti"(2005) və "Azərbaycanın geosiyasəti" (2015), Novruz Məmmədovun "Reallıqlar və gələcəyə baxış" (2013), Anar İsabəylinin "Pakistan müasir beynəlxalq münasibətlər sistemində" (2005) adlı kitabı, Xaqani Balayevin "Azərbaycan - Pakistan strateji tərəfdaşlığı" (2018), Nəzrin Əlizadənin "Azerbaycan-Pakistan Askeri İlişkileri"(2021) adlı məqaləsi vəmüxtəlif internet resursları istifadə olunmuşdur. Xarici alimlərdən Shahid Hussain "Pakistan and Azerbaijan: Deepening a Mutually Beneficial

Relationship" (2020), Ayaz Haider Bangash "Azerbaijan and Pakistan: Historical relations and perspectives" (2018), Kamal Makili-Aliyev və Khurram Abbas "Pakistan-Azerbaijan Economic and Defence Cooperation" (2016) və s. kitab və məqalələrdə dissertasiya mövzusuna aid araşdırmalar aparılmış, müxtəlif nəticələr əldə edilmişdir. Adları qeyd edilən tədqiqat əsərlərinə ümumi olaraq nəzər yetirdikdə belə bir nəticəyə gəlinir ki, bugün Pakistanı tam əminliklə Azərbaycanın Türkiyədən sonra ikinci əsasstrateji müttəfiqi hesab etmək olar. İki ölkə arasındakı münasibətlər həmikitərəfli, həm də çoxtərəfli formada çox intensiv inkişaf dövrünü yaşayır.

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında müxtəlif sahələrdə münasibətlər siyasi, iqtisadi, ticari, hərbi, müdafiə, sosial, humanitar və mədəni sahələrdə uğurla davam etdirilir.Azərbaycan ilə Pakistan arasında yüksək səviyyədə olan siyasi və diplomatik münasibətləri iqtisadi sahədə də reallaşdırmaq hal – hazırda iki ölkənin qarşısında duran əsas vəzifələrdən biridir.Azərbaycan modern müdafiə sənayesinəvə çox güclü bir orduyamalik Pakistan ilə hərbi sahədə əlaqələrin daha da dərinləşməsində maraqlıdır və burada əsas məqsəd ordunun müdafiə qabiliyyətinin inkişafı və hərbi sənayenin inkişaf etdirilməsidir.

Həmçinin, baxmayaraq ki, iki ölkənin hazırki ticarət dövriyyəsi mövcud potensialı əks etdirmir, Azərbaycan ilə Pakistan arasında ticarəti inkişaf etdirmək üçün böyük imkanlar var. Belə ki, Azərbaycan Xəzər dənizində zəngin enerji resurslarına malik olmaqla bu resursların Avropaya nəqli üçün geniş imkanlara malikdir. Pakistan isə öz növbəsində Mərkəzi və Cənubi Asiya regionu arasında tranzit xarakterli geosiyasi mövqeyə sahibdir. Bu da iki ölkənin energetika sahəsində əməkdaşllığına imkan yaradan əsas faktorlardan biridir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2003-2020-ci illərdə mövcud olan siyasi-diplomatik, iqtisadi, hərbi-texniki, mədəni və humanitar əlaqələrini, iki dövlətin müxtəlif təşkilatlar çərçivəsində əməkdaşlığını araşdırmaq və analiz etmək tədqiqat işinin əsas məqsədidir.

Tədqiqatın məqsədinə görə aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

- Azərbaycan - Pakistan münasibətlərinin nəzəri - konseptual əsaslarını araşdırmaq;

- ikitərəfli münasibətləri şərtləndirən amillərimüəyyənləşdirmək;

- iki dövlət arasında diplomatik münasibətlər qurulduqdan sonra siyasi, müdafiə, hərbi-texniki, iqtisadi və mədəni-humanitar sahədə əməkdaşlığını tədqiq etmək;

- Azərbaycanla Pakistanın İslam Əməkdaşlıq Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığını analiz etmək;

- Azərbaycan – Türkiyə – Pakistan formatının yaranması və inkişaf perspektivləriniaraşdırmaq.

**Tədqiqat işinin nəzəri metodoloji bazası.** Azərbaycan-Pakistan ikitərəfli əlaqələrinin müasir tarixi və inkişaf dinamikasınaaid elmi əsərlər tədqiqat işinin əsas metodoloji bazasını təşkil edir. Tədqiqat işinin yazılmasında istifadə olunan yerli və xarici alimlərin elmi əsərlərinin adları ədəbiyyat siyahısında qeyd olunmuşdur. Dissertasiya işi yazılarkən tarixi-təsviri metod, analitik-proqnostik metod, kontent və ivent analiz, müqayisəli təhlil metodu, həmçinin situasiyanın təhlili metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat zamanı Azərbaycan ilə Pakistan arasında 2003-cü ildən 2020-ci ilə qədərinkişaf etmiş siyasi, iqtisadi, mədəni, humanitar və hərbi əlaqələr müxtəlif aspektdən öyrənilmişdir. Azərbaytan-Türkiyə-Pakistan formatının perspektivləri müəyyənləşdirilmiş və kompleks şəkildə tədqiq edilmişdir. Habelə iki dövlət arasında müxtəlif illərdə baş tutmuş dövlət və hökumət başçılarının səfərlərinin müqayisəli təhlili aparılmışdır.İkitərəfli münasibətlərlə yanaşı, Azərbaytan-Türkiyə-Pakistan formatının yaradılması və regional və qlobal əhəmiyyəti Azərbaycanda ilk dəfə magistr səviyyəsində araşdırılır. Vətən müharibəsindən sonra Azərbaycan və Pakistan dövlətlərinin münasibətləri daha da inkişaf edərək yeni

sferaya qədəm qoydu. Bu baxımdan bu münasibətlərin daha dərindən öyrənilməsi aktualdır və yeni yanaşmalar tələb edir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işində Azərbaycan-Pakistan münasibətləri xronoloji ardıcıllıqla və sahələr üzrəmüqayisəli şəkildətədqiq olunur. Tədqiqatın elmi-nəzəri əsaslarını yerli və xarici tədqiqatçıların elmi-nəzəri əsərləri, araşdırmaları və məqalələri təşkil edir.

Dissertasiya işində müxtəlif dillərdəki materialların öyrənilməsi və nəticədə Azərbaycan dilində irəli sürülən nəzəri müddəalar mövcud təhlillərə əsaslanan tədqiqat üçün elmi əsas ola bilər.

Dissertasiyanın praktik əhəmiyyətinə gəldikdə, əldə olunan nəticələr ali təhsil müəssisələrində "Beynəlxalq münasibətlər" və "Beynəlxalq münasibətlər tarixi" ixtisasları üzrə magistr səviyyəsində təhsil alan magistrantlar, həmçinin bu istiqamətdə tədqiqat aparan doktorantlar üçün həm nəzəri əsas, həmçinin praktik mənbə rolunu oynaya bilər.

Tədqiqat işi "Beynəlxalq münasibətlər" və "Beynəlxalq münasibətlər tarixi" ixtisası üzrə bakalavr və magistratura dərəcəsi üzrə ixtisaslaşan tələbələrə tədris prosesi üçün məqalə yazmağa, seminara hazırlaşmağa, elmi məlumat almağa kömək ola bilər.

**İşin aprobasiyası**. Tədqiqat işinin nəticələri müxtəlif yerli konfranslarda, eləcə də dövri mətbu orqanlarda müzakirə edilmiş və 2 tezis şəklində dərc olunmuşdur.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi girişdən, üç fəsil, doqquz yarımbaşlıq, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL. AZƏRBAYCAN - PAKİSTAN ƏLAQƏLƏRİNİN ƏSASLARI

## 1.1. Azərbaycan – Pakistan əlaqələrinin nəzəri-konseptual əsasları və münasibətləri şərtləndirən amillər

Azərbaycan ilə Pakistan arasındakı əlaqələrinin tarixi dərin köklərə malikdir. 1947-ci ildə müstəqil ölkə kimi dünya siyasi xəritəsinə daxil olan Pakistanın indiki əraziləri Hindistana bağlı idi. Hələ Səfəvilər dövləti zamanında Hindistan Böyük Moğol dövlətinin tərkibində idi və o zaman müasir Azərbaycan və Pakistan dövlətləri arasında sıx mədəni, iqtisadi, siyasi əlaqələr yaranıb. O vaxt Hindistandan Səfəvilər dövlətinə gələn tacirlər Bakıda, Şamaxıda və digər böyük şəhərlərdə məskən salır, gətirdikləri malları karvansaralarda satır, Azərbaycandan Hindistana əsasən ipək və misgərlik məmulatları aparırdılar. Hər iki bölgənin Şərq dövlətlərinin bir çoxunu birləşdirən İpək yolu üzərində yerləşməsi onların həm iqtisadi-ticari, həm də siyasi münasibətlərinin inkişafına müsbət təsir edirdi.

İçərişəhərdə Multanı karvansarası adlanan yerindiki Pakistan ərazisində olan Multan şəhəri ilə əlaqəlidir. Belə ki, oradan gələn tacirlərin bir çoxu İçərişəhərdəki Multanı karvansarasında yerləşmişlər. Yerli əhali bu tacirlərin dilini anlamadığından xalq arasında "moltanı dili" kimi bir ifadə yaranmışdır ki, bu kəlmənin tarixi də məhz o dövrə gedib çıxır [27].

Pakistan -Azərbaycan münasibətlərinin Səfəvilər dövrü ilə bağlı olmasını göstərən digər fakt isəSəfəvi şahı Şah Təhmasibin hakimiyyəti illərində Moğol hökmdarı Hümayun 70 nəfər ən yaxın adamı ilə birgə Səfəvilər dövlətinə sığınır, Şah Təhmasiblə görüşərək dövlətinin bərpası üçün ondan yardım istəyir. Şah Təhmasib isə ona 12 min nəfərlik seçmə Qızılbaş ordusu verir. Hümayun bu ordu ilə geri dönür və bütün düşmənlərini məğlub edərək öz dövlətini bərpa edir. İkinci fakt isə odur ki, Nadir Şah Əfşar Hindistan və Əfqanıstanı işğal etdiyi zamanı oraya Bayat, Cavanşir

və Avşar boylarını aparmışdır. 1901-ci ildə Böyük Britaniya öz müstəmləkələrində siyahıyaalma aparmış və məlum olmuşdur ki, Hindistanın Uttar Pradeş əyalətində 2877 nəfər, 1911-ci ildə aparılan siyahıyaalmaya əsasən Pəncab və Dehlidə 1959 soydaşımız yaşamış və avşar, qızılbaş, mərvi vəs. adlarla tanınmışlar. Bu gün Pakistanda Naxçivani, Təbrizi, Əfşar, Şirvani, Şirvanlı, Bakuvi kimi soyadların olması ikitərəfli münasibətlərin dərin tarixi köklərə malik olmasının əyani sübutudur [25].

Azərbaycan - Pakistan əlaqələri görkəmli azərbaycanlı xeyriyyəçi, mesenat Hacı Zeynalabdin Tağıyevin sayəsində çox inkişaf etmişdir. XX əsrin əvvəllərində Pakistan ərazisi hələ Böyük Britaniyanın müstəmləkəsi olduğu zaman yerli əhali arasında taun epidemiyası yayılmışdı. İnsanlar kütləvi şəkildə bu ağır xəstəlikdən tələf olurdular. Həmin vaxt böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev öz şəxsi vəsaiti hesabına Avropadan 300,000 sayda peyvənd alaraq Pakistana göndərir və bununla da pandemiyanın qarşısı xeyli alınır [22].

Qarşılıqlı əlaqələrin inkişafında son illər Heydər Əliyev Fondunun həyata keçirdiyilayihələr də mühüm rol oynayır. Uzun illərdən bəri iki dost ölkə bir çox sahələrdə, xüsusən də hərbi və siyasi sahədə də sıx əməkdaşlıq edir. İkinci Qarabağ Müharibəsi zamanı və ondan sonrakı dönəmdə də qardaş Pakistan xalqı və hakimiyyəti Azərbaycanın yanında oldu, ölkəmizə siyasi və mənəvi dəstəyini əsirgəmədi.

1991 - ci il oktyabrın 18 - də müstəqillik əldə edən Azərbaycan Respublikası uzlaşdırılmış daxili və xarici siyasət qurmaq istiqamətində addımlar atmağa başladı. İlk öncə demokratik, hüquqi və dünyəvi dövlət qurmaq üçün müvafiq daxili və xarici siyasətin həyata keçirilməsi vacib idi. Sovet İttifaqından yenicə müstəqillik əldə etmiş gənc bir dövlət üçün milli maraqların düzgün müəyyənləşdirilməsi, uğurlu inkişaf və beynəlxalq əlaqələr üçün daha uyğun daxili və xarici siyasət kursunun seçilməsi həyati əhəmiyyət kəsb edirdi. Milli maraqların reallaşdırılması üçün isə təbii ki təhlükəsizlik şəraitinin yaradılması mühüm əhəmiyyət kəsb edirdi.

1993-cü il iyunun 15 - də hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev müstəqillik qazanmışAzərbaycan Respublikasının qlobal dünyada öz yerini müəyyənləşdirməsi üçün milli təhlükəsizlik siyasətinə xüsusi önəm verirdi. Çünki düzgün milli təhlükəsizlik siyasətinin müəyyən edilməsi və yürüdülməsi Azərbaycanınmüstəqilliyi və ərazibütövlüyünün qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminə uğurlu inteqrasiyası, beynəlxalq və regional təşkilatlara üzvlük, region və dünya dövlətləri ilə qarşılıqlı siyasi, iqtisadi, sosial, mədəni, humanitar vəs. əlaqələrin qurulması üçün prioritet təşkil edirdi.

1995 - ci il noyabrın 12 - dəümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyası milli təhlükəsizliyin hüquqi bazasını yaradaraq milli maraqların reallaşmasını təmin edən əsas prinsipləri özündə əks etdirmişdir. Müstəqil Azərbaycanın xarici siyasətinin konseptual əsasları da məhz bu ali qanunvericilik sənədində öz əksini tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsində göstərilir ki, Azərbaycan Respublikasının başqa dövlətlərlə münasibətlərinin hamılıqla qəbul edilmiş hüquq normalarında nəzərdə tutulmuş prinsiplər əsasında qurur [2, s.7].

Azərbaycan Respublikasının xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələrölkənin müstəqilliyini, suverenliyini və beynəlxalq aləmdə tanınmış sərhədləriçərçivəsində ərazi bütövlüyünü qorumaq, onun təhlükəsizliyini regional və beynəlxalqtəhlükəsizlik sistemi ilə sıx əlaqələndirmək;Azərbaycanın bütün beynəlxalq və regional təşkilatlarda təmsil olunması, sivil birgəyaşayış qaydaları ilə tənzimlənən dünya siyasətinə qatılması, beynəlxalqvə regional münasibətlərin həllində fəal iştirak etməsi zəminində dünyanın siyasixəritəsində layiqli yer tutmasına nail olmaq;dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıqəlaqələri yaratmaq, bu əlaqələrdən respublikanın iqtisadiyyatının, elminin vəmədəniyyətinin inkişafında səmərəli amil kimi istifadə etmək;mənafeyi Azərbaycanın dövlətçilik və milli mənafeləri ilə uyğun gələndövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikanın beynəlxalqmövqelərinin

möhkəmlənməsi üçün onların imkanlarından istifadə etmək; xarici ölkələrlə elm, mədəniyyət, humanitar sahələrdə əlaqələr və geniş informasiya mübadiləsi mexanizmləri yaratmaq və s [5, s.211-219].

Demokratik, hüquqi, dünyəvi, unitarrespublika olan Azərbaycanın xarici siyasəti də bu prinsipləri özündə əks etdirərək beynəlxalq münasibətlərin hüquqi və demokratik əsaslar üzərində qurulmasınaistiqamətlənmişdir.

Azərbaycan Respublikası Konstitusiyasında həmçinin qeyd olunur ki, AzərbaycanRespublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalqhüquq normalarına uyğun qurur və bu beynəlxalq hüquq normalarında nəzərdə tutulan ikitərəfli və çoxtərəfli beynəlxalq əlaqələr prinsipləriAzərbaycan Respublikasının Pakistan İslam Respublikası ilə münasibətlərində də əsas götürülür.

Azərbaycan Respublikasının xarici siyasətininəsas məzmununu milli maraqlar və milli təhlükəsizlik prinsipləri təşkil edir. Milli maraqlar və milli təhlükəsizliklə bağlı beynəlxalq münasibətlər nəzəriyyəsində mövcud olan əsas konsepsiyalardan biri siyasi realizmdir. Siyasi realizmin banisi sayılan Hans Morgertaunun əsas tezisi “Xarici siyasətin məqsədi uyğun güclə dəstəklənməli və milli maraqlar termini iləmüəyyənləşməlidir” olmuşdur [19].

Siyasi realizmin tərəfdarları qeyd edir ki, beynəlxalq münasibətlərelə bir dövlətlərarası münasibətlərdir ki, burada real aktorlarsuveren dövlətlərdən ibarətdir. Bu nəzəriyyəyəy əsasən, dövlət, ixtiyarında olan bütün gücpotensialından istifadə edərək öz maraqlarını reallaşdırmağa çalışır. Dövlətin əsas milli maraqlarını milli təhlükəsizlik maraqları (dövlətin ərazisinin müdafiəsi, əhali və dövlət institutlarının xarici təhlükədənqorunması vəs.).

milli iqtisadi maraqlar (xarici ticarətin inkişafı və investisiyanın artımı, ölkəyə yatırılan xarici xüsusi kapitalın maraqlarının müdafiəsi vəs.) və dünya nizamının dəstəklənməsi maraqları (müttəfiqlərlə qarışılıqlı münasibətlər, müvafiq xaricisiyasət kursunun seçilməsi vəs.) təşkil edir.

Əgər Azərbaycan - Pakistan münasibətlərini siyasi realizm nəzəriyyəsi əsasında təhlil etsək, görərik ki, ikitərəfli münasibətlərin yaradılması hər iki dövlətin milli maraqlarına xidmət edir. Asiya qitəsinin mühüm aktorlarından olan Pakistan İslam Respublikası nüvə silahına malik olmaqla həm Asiya qitəsində, həm də müsəlman dövlətləri arasında hərbi - geostrateji mövqeyini gücləndirmişdir. Pakistanın regionda həyata keçirdiyi siyasətin əsasını Hindistan və İranla olan rəqabət, Türkiyə və Azərbaycanla olan geosiyasi tərəfdaşlıq təşkil edir [6, s.390].

İki dövlət arasında olan münasibətləri hərbi - strateji müttəfiqlik kimi dəyərləndirmək lazımdır. Çünki, Pakistan Türkiyədən sonra Azərbaycanın dövlət müstəqilliyini tanıyan 2 - ci dövlətdir. 1992 - ci il 9 iyun tarixindən yaradılan diplomatik münasibətlər bu gün də beynəlxalq səviyyədə davam etdirilir. Hər iki dövlətin ərazisində münaqişənin olması (Azərbaycan ərazisində Ermənistan - Azərbaycan münaqişəsi, Pakistan ərazisində isə Kəşmir məsələsi) Azərbaycanla Pakistanı bir - birinə yaxınlaşdırmaqla yanaşı, onların beynəlxalq müstəvidə bir - birinə dəstək verməsini və bununla da milli maraqların təmin olunmasını göstərir. Pakistan Dağlıq Qarabağ məsələsində Azərbaycana daim dəstək göstərmiş, məhz onun BMT Təhlükəsizlik Şurasına sədrliyi zamanı erməni işğalçılarının Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 822 saylı qətnamə (30 aprel 1993 - cü il) qəbul edilmişdir. Pakistan bu günədək işğalçı Ermənistanla diplomatik əlaqələr qurmayıb və bununla da Azərbaycanla olan strateji müttəfiqlik münasibətlərinə verdiyi əhəmiyyəti sərgiləməkdədir.

Səmərəli xarici siyasət fəaliyyəti və tarazlı inkişaf prinsipinə riayət edən Azərbaycanmüasir diplomatiyasını öz xarici siyasət maraqları ilə dünya dövlətlərininAzərbaycandakı maraqları arasında tarazlıq yaratmaq istiqamətində qurmuşdur. Geosiyasi, geostrateji və geoiqtisadi baxımdan mürəkkəb məkanda yerləşən Azərbaycan Respublikasının milli maraqlarının və təhlükəsizliyinin təmin olunması milli dövlətçilik prinsiplərinə, müstəqilliyin və suverenliyin qorunmasına xidmət edəcək dayanıqlı və effektivxarici siyasət strategiyasının işlənib

hazırlanmasını tələb edirdi.Ümummilli Lider Heydər Əliyevin uzaqgörən xarici siyasət strategiyası Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində layiqli yerini almasını şərtləndirmişdir.

Azərbaycan Respublikasının müxtəlif səviyyəli beynəlxalq münasibətlər sahəsində əlaqələr qurarkən və inkişaf etdirərkən rəhbər tutduğu əsas prinsiplərhər bir dövlətin suveren hüquqlarına, ərazi bütövlüyünə hörmətlə yanaşmaq, beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun olaraq dövlətlərin ərazi bütövlüyünün pozulmasına, sərhədlərinin zorla dəyişdirilməsinə və dövlət müstəqilliyinin təhlükə altına alınmasına yol verməmək, mübahisəli məsələləri dinc yolla həll etmək, digər dövlətlərin daxili işlərinə müdaxilədən çəkinmək və xarici dövlətlərin onun daxili işlərinə qarışmasına yol verməmək, hər bir ölkənin müəyyənləşdirdiyi və üstünlük verdiyi inkişaf modelinə hörmətlə yanaşmaq, beynəlxalq səviyyədə üzərinə götürdüyü öhdəlikləri dəqiq yerinə yetirmək, müxtəlif spektrli əlaqələrdəbərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq, ortaq maraq və mənafeləri qorumaq vəs. [18, s.4].

Azərbaycan Respublikası Pakistan ilə ikitərəfli münasibətlərində məhz sadalanan prindiplərdən çıxış edir. Ümummilli lider Heydər Əliyev 9 - 11 aprel 1996 - cı ildə Pakistanda rəsmi səfərdə olarkən qeyd etmişdir ki, "Pakistan ilə Azərbaycan arasında çox yaxşı əlaqələr, dostluq əlaqələri var. Bu əlaqələr keçmiş tarixi ənənələrimiz üzərində qurulur. Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyi haqqında bəyanat verdikdən sonra Pakistan ölkəmizin öz müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir" [17].

Pakistan İslam Respublikası Asiya qitəsinin və İslam Şərqinin nüfuzlu dövlətlərindən biridir. Regionun ən böyük və nüfuzlu dövlətlərindən biri olan Pakistan dünyada əhali sayına görə 5 - ci (220 milyondan çox), müsəlman əhalinin sayına görə isə İndoneziyadan sonra 2 - ci ölkədir [29]. Pakistanın ərazisi 882 min $km^2$ -dir [30]. Pakistan Əfqanıstan, İran, Hindistan və Çin ilə həmsərhəddir. Beynəlxalq arenada Pakistan İslam Respublikası BMT-nin, Ümumdünya Ticarət Təşkilatının üzvü olmaqla yanaşı, inkişaf etməkdə olan ölkələrin birliyi olan "G33"-

ün və “77-lər Qrupu’nun fəal üzvlərindən biri kimi beynəlxalq münasibətlərdə uğurlu fəaliyyət göstərən aktorlardandır. Pakistan 1947-ci ildə Böyük Britaniya imperiyasının Hindistanı rəsmi olaraq iki hissəyə bölməsi nəticəsində müstəqil olmuşdur. Amma bu bölgü zamanı Kəşmir vilayətinin iki yerə parçalanması ilə Pakistanla Hindistan arasında günümüzdə də davam edən mübahisəli ərazi problemi yaranmışdır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Pakistana Kəşmir məsələsi ilə bağlı öz dəstəyini heç vaxt əsirgəmir və Pakistanın Azərbaycana Ermənistan - Azərbaycan münaqişəsi ilə bağlı göstərdiyi davamlı dəstəyi də yüksək qiymətləndirir. “Azərbaycan bütün məsələlərdə və Kəşmir məsələsində həmişə Pakistanı dəstəkləyir. Bu qarşılıqlı dəstək bizim əməkdaşlığımızın qardaşlıq xüsusiyyətini əks etdirir... İkitərəfli əlaqələrdə siyasi sahədən əlavə biz iqtisadi məsələlər üzərində diqqətimizi cəmləşdirməliyik. Hesab edirəm ki, qarşılıqlı ticarəti stimullaşdırmaq və investisiyalar sahəsində daha fəal münasibətləri qurmaq üçün böyük potensial mövcuddur. Biz Azərbaycanın ərazi bütövlüyü məsələləri ilə bağlı Pakistanın qətiyyətli mövqeyinə görə minnətdarıq. Pakistan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə görə Ermənistanı tanımayan ölkədir” [26].

### 1.2. Azərbaycan – Pakistan münasibətlərinin hüquqi-siyasi aspektləri

Zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi olan Azərbaycan Respublikası dövlət müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçilik mənafelərinin qorunmasına böyük əhəmiyyət verir, həmçinin milli dövlətçilik maraqlarına cavab verən səmərəli və məqsədyönlü xarici siyasət kursu həyata keçirir. Strateji inkişaf xətti kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası malik olduğu iqtisadi potensialını reallaşdırmaq üçün inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyasını və maliyyə imkanlarını cəlb edir və bu ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir.

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikasının əlverişli geostrateji mövqeyi, mövcud olan gələcəkdə reallaşdırılması planlaşdırılan layihələrin mərkəzində yer tutması, hər iki dövlətin müsəlman dünyasında mühüm rolu və ən əsası Pakistanın Hindistanla, Azərbaycanın isə Ermənistanla münqaişə vəziyyətində olması iki dövlət arasında yaxınlaşmanı şərtləndirmişdir.

İki ölkə arasında strateji partnyorluq münasibətlərini şərtləndirən amilləri nəzərdən keçirərkən ilk növbədə hər iki dövlətin xarici siyasət strategiyası və prioritetlərini müəyyənləşdirmək lazımdır.

Beynəlxalq münasibətlərin müstəqil bir aktoru olan hər bir suveren dövlətin xarici siyasətini istiqamətləndirən strateji fəaliyyət konsepsiyasıolmalıdır ki, bu konsepsiya çərçivəsində dövlətin uzunmüddətli fəaliyyət proqramı tərtibedilir. Bu fəaliyyət proqramınaregional miqyasda münasibətlərin inkişafı və konkret dövlətin başqadövlətlərlə əlaqələrinin qurulması daxildir. Azərbaycanın müxtəlif istiqamətlərdə yürütdüyü xarici siyasəti qarşısında duran birinci dərəcəli vəzifələrivardır ki, bu vəzifələr ölkəmizinsiyasi və iqtisadi maraqlarına uyğun müəyyənləşdirilmişdir. Xaricisiyasət milli maraqlar əsasında formalaşdırıldığından konkret zaman vəməkan daxilində milli maraqların prioritetləri xarici siyasətin istiqamətlərinə və məzmununa ciddi təsir edir.

XX əsrin sonunda dünyada baş verən qlobal proseslər, "soyuq müharibə"nin başa çatması, SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildədəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında meydana çıxan yenimüstəqil dövlətlərin bilavasitə beynəlxalqmünasibətlər sisteminə qatılması və öz maraqlarını ifadə edən xaricisiyasət kursunu həyata keçirməyə başlaması dünyada dövlətlərarası münasibətlərin yeni düzümününformalaşmasına gətirib çıxardı.

1991 - ci ilin oktyabrın 18 - də müstəqilliyini yenicə bərpa etmiş, mühüm geosiyasi məkanda yerləşən Azərbaycan müstəqil dövlət üçünprinsipial əhəmiyyət daşıyan məsələni -mövcud zaman və məkanda xarici siyasətdə reallaşmasıönəmli olan

vəzifələrin müəyyənləşdirilməsi işini ön plana çəkdi. Müasir beynəlxalq münasibətlər sistemine qoşulmaq yolunda ilk addım dünyanın bir sıra dövlətləri tərəfindənrəsmi surətdə tanınmış Azərbaycanın 1992-ci il mart ayının 2-də BMT-nin üzvlüyünə qəbul edilməsi oldu.

Beynəlxalq birliyi Azərbaycan ilə qarşılıqlı faydalı əməkdaşlığa inandırmaq və cəlb etmək, milli maraqları dünya dövlətlərinin kəsişən və toqquşan mənafeləri ilə uzlaşdırmaq, Azərbaycanınmüstəqilliyinə və təhlükəsizliyinə beynəlxalq təminat almaq üçün çox ciddi səylər edilməli və gərgin fəaliyyətgöstərilməli idi. Bunun üçün ilk olaraq mövcud sosial-siyasi, hərbi, iqtisadi, geosiyasi, regional və beynəlxalq şəraitinəzərə alaraq xarici siyasətin prioritetləriformalaşdırıldı. Bildiyimiz kimi, xarici siyasət həmişə daxili siyasətindavamıdır və dövlətin fəaliyyətinin bu iki əsas tərkib hissəsibir-birini tamamlayır. Yəni əgər daxili siyasətlə xarici siyasət bir-birini tamamlayırsa, o zaman dövlətin siyasəti güclü olur.

Azərbaycanınxarici siyasətinin prioritetləri sistemli və praqmatikdir. Azərbaycanın xarici siyasətinin prioritetləri sırasında aşağıdakıları qeyd etmək mümkündür [10, s.176-179]:

- qanunun aliliyi və bazar iqtisadiyyatına əsaslanan plüralist demokratiyanın inkişaf etdirilməsi;

- Azərbaycanın siyasi müstəqilliyi, ərazi bütövlüyü, təhlükəsizliyi və suverenliyinə qarşı yönələn bütün növ təhlükələrin aradan qaldırılması;

- Ermənistanın ölkəmizə qarşı yğnəlmiş hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması;

- qonşu ölkələrlə qarşılıqlı faydalı və mehriban qonşuluq münasibətlərinin inkişaf etdirilməsi;

- regional təhlükəsizlik və sabitliyin gücləndirilməsi;

- bölgədə qanunsuz silah, narkotrafik və digər qanunsuz daşımalarınqarşısının alınması;

- Xəzər dənizi hövzəsinin demilitarizasiyası;

- nüvə silahlarının yayılmasının qarşısının alınmasına dair mövcud olan qlobal prinsiplərə sadiqlik və Cənub Qafqazda nüvə silahlarından azad zonanın yaradılması;

- beynəlxalq terrorizmlə mübarizədə iştirak;

- NATO, Avropa İttifaqı, ATƏT və Avropa Şurası da daxil olmaqla, dünyanın təhlükəsizlik və əməkdaşlığa cavabdeh beynəlxalq strukturları ilə sıx əməkdaşlıq;

- Azərbaycanın Qərb və Şərqin qovşağında mühüm strateji-coğrafi mövqeyindən bəhrələnərək, ölkə iqtisadiyyatının müxtəlifsahələrinin inkişafının sürətləndirilməsi;

- Azərbaycanın birbaşa iştirak etdiyi Avrasiya nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi.

Azərbaycanın xarici siyasət prioritetlərini analiz edərkən aydın olur ki, xarici siyasətdə təhlükəsizlik, əməkdaşlıqvə daxili sosial-iqtisadi inkişaf aspektləri bir-biri ilə sıx bağlıdır. Məhz buna görə də Ümummilli Lider Heydər Əliyev bütün xarici səfərlərində ölkəmizin demokratikləşməsini, sosial-iqtisadi və mədəniinkişaf modelini birbaşaregiondakı münaqişələrin həlli, beynəlxalq miqyasda təhlükəsizliyəolan təhdidlərin aradan qaldırılması ilə əlaqələndirirdi. Prezident İlham Əliyev həmin xətti meydana çıxanyeni geosiyasi və iqtisadi-hərbi şərtləri nəzərə almaqla davam etdirir və ölkəmizin xarici siyasət prioritetlərini bumilli maraqlara uyğun reallaşdırılır.

Pakistan İslam Respublikasının xaric siyasət strategiyası və prioritetlərini analiz edərkən qeyd olunmalıdır ki, Cənubi Asiya, Mərkəzi Asiya və Orta Şərqin qovşağında yerləşən Pakistan eyni zamanda etnik müxtəliflik və fərqli ideologiyaların hakim olduğu bir regionda yerləşir və burada müxtəlif ziddiyyətlər və münaqişə ocaqları vardır. Bu faktor Pakistanın daha çevik və çoxvektorlu xarici siyasət yürütməsini şərtləndirir. Həmçinin, Pakistanın zəngin təbii sərvətlərə malik olmaması bu dövlətin iqtisadi yönümlü beynəlxalq və regional təşkilatlarda daha fəal iştirakını labüd etmişdir. Məsələn, İqtisadi Əməkdaşlıq Təşkilatının yaradıcılarından biri olaraq Pakistan bu quruma üzv olan zəngin təbii sərvətlərə malik dövlətlərlə daha sıx

münasibətlər qurmaq və regionda əsas güc mərkəzlərindən birinə çevrilmək məqsədi daşıdır.

Pakistanın xarici siyasətinə təsir edən amillərdən biri də onun Hindistanla olan olan münasibətləridir. Bildiyimiz kimi, iki ölkə arasında Kəşmir məsələsi ilə bağlı gərgin münasibətlər hökm sürmüşdür ki, məhz bu amil Pakistanın Çin ilə müttəfiqlik münasibətlərini, ABŞ ilə strateji münasibətlərini, Pakistanın müsəlman dövlətləri ilə daha da yaxınlaşmasını vəs. şərtləndirmişdir.

Azərbaycanın Pakistan ilə əlaqələrini şərtləndirən amillərə gəlincə, hər iki dövlətin artıq həllini tapmış Dağlıq Qarabağ münaqişəsi və hələ də həllini gözləyən Kəşmir məsələsi ilə bağlı bir - birinə beynəlxalq arenada verdiyi dəstək və bu məsələnin onları bir - birinə yaxınlaşdırması xüsusi qeyd olunmalıdır. Müstəqilliyimizin ilk illərində Azərbaycanın xarici siyasət xəttinin formalaşmasına ərazi bütövlüyünün bərpa olunması böyük təsir etmişdir ki, bu baxımdan qarşıda duran əsas vəzifə kimi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması və bu istiqamətdə regional və böyük dövlətlərin dəstəyinə nail olmaq idi.

Pakistan ABŞ ilə strateji partnyorluq münasibətlərinə malikdir və terrorizmlə mübarizədə ABŞ - ın regiondakı əsas müttəfiqlərindən biri kimi hazırda dünya siyasətində ölnəmli rol oynamaqdadır. Dünyada kütləvi qırğın silahına və raket texnologiyasına malik olan yeganə müsəlman dövləti olan Pakistanın xarici siyasətində İslam faktoru xüsusi yer tutur. İslam dini müasir Pakistan dövlətinin və millətinin mədəni identikliyinin əsas elementi hesab edilir, həmçinin İslam dini Pakistanın xarici siyasətinin formalaşmasında mühüm rol oynamaqdadır. Pakistanın beynəlxalq sistemdəki mövqeyi İslam ideologiyası ilə əlaqədardır. Bu da onunla əlaqədardır ki, Pakistan ərazisində müstəqillik hərəkatında islami təmayüllü Müsəlman Liqası partiyası mühüm rol oynamışdır. Eyni zamanda əhalisinin 96 faizdən çox hissəsi İslam dininə sitayiş edir.

Müstəqil Azərbaycan Respublikasının həyata keçirdiyi xarici siyasət bütün istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığa yönəlmişdir. 2011-ci ildə Qoşulmama

Hərəkatına üzv olan Azərbaycanın müstəqil xarici siyasəti ilk növbədə onun bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmasına söykənir. Azərbaycan heç bir hərbi - siyasi blokda iştirak etmir və bütün ölkələrlə bərabər hüquqlarla, qarşılıqlı faydalı əməkdaşlıq edir.

Pakistan İslam Respublikasının beynəlxalq münasibətlərdə əməkdaşlıq etdiyi əsas ölkələr ABŞ, Çin, Səudiyyə Ərəbistanı, Türkiyə və Əfqanıstan olsa da, rəsmi İslamabad türkdilli dövlətlərlə də yaxın münasibətlər quraraq ikitərəfli və çoxtərəfli əlaqələri davam etdirməkdədir. Pakistanın Türkiyə Cümhuriyyəti ilə olan yaxın münasibətləri bu Asiya qitəsi ölkəsinin Azərbaycan ilə hərtərəfli əlaqələrinin ildən-ilə genişləndirilməsində mühüm rol oynayır. Həmçinin, Hindistanın Pakistanı Cənubi Asiya regionunda əməkdaşlıqdan sıxışdırması Pakitanın müsəlman ölkələri ilə əlaqələrini daha da inkişaf etdirməsini zəruri edir.

Dövlət müstəqilliyini möhkəmləndirmək, bərpa edilmiş ərazi bütövlüyünü qoruyub saxlamaq və güclü həri sahəyə sahib olmaq üçün güclü hərbi - texniki, həmçinin diplomatik dəstəyə ehtiyac duyan Azərbaycan üçün Pakistan ilə əməkdaşlıq olduqca böyük əhəmiyyət kəsb edir. Belə ki, Pakistan dünyanın ən güclü ordularından və ən nüfuzlu diplomatiyalarından birinə malik bir dövlətdir.

Bu gün Pakistanı tam əminliklə Azərbaycanın Türkiyədən sonra ikinci ən əsas strateji müttəfiqi adlandırmaq olar. İki ölkə arasında münasibətlər həm dövlətlərarası, həm də beynəlxalq səviyyədə uğurla davam etdirilir. Azərbaycan və Pakistan BMT, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi mühüm təşkilatların tribunasından Kəşmir və Ermənistan - Azərbaycan münaqişələrinə eyni mövqedən yanaşırlar və bu məsələlərin beynəlxalq hüququn hamılıqla qəbul olunmuş normaları çərçivəsində həllinə tərəfdar olduqlarını bildirirlər [4, s.527].

Balanslaşdırılmış xarici siyasət, çoxvektorlu əməkdaşlıq, bərabərhüquqlu münasibətlər, etibarlı tərəfdaşlıq və milli maraqlar əsasında müstəqil siyasət yürüdən Azərbaycan ilə Pakistan arasında yaradılmış çox sıx münasibətlər və ikitərəfli əlaqələrin strateji partnyorluq səviyyəsinə qalxmasına Pakistanın 44 günlük Vətən

Müharibəsi-İkinci Qarabağ savaşı zamanı Azərbaycana göstərdiyi mənəvi dəstək çöx böyük təsir etmişdir.

Azərbaycan Respublikasının ən sadiq tərəfdaşı və dostlarından biri olan Pakistanın ölkəmizlə siyasi, hərbi, iqtisadi sahələrdə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinə verdiyi dəstək beynəlxalq miqyasda da davam etdirilir. Belə ki, Pakistanın Asiya qitəsində ölkəmizin əsas tərəfdaşlarından və dostlarından biri olması ilə bu ölkə Azərbaycanın Şərq tərəfdaşlığına böyük töhfələr verir.

Azərbaycanla Pakistan arasında gələcək münasibətlərin inkişafının böyük perspektivi var. “Apardığımız danışıqlar göstərir ki, Pakistan-Azərbaycan münasibətlərinin çox böyük perspektivi, gələcəyi var. İqtisadi əlaqələrin inkişaf etdirilməsində müştərək nailiyyətlər əldə edə bilərik. Müştərək işlər görülməsi üçün mən Pakistan nümayəndələrini Azərbaycana dəvət etmişəm və bu gün də dəvət edirəm. Əmin ola bilərsiniz ki, biz bu əməkdaşlığın inkişafı üçün səylərimizi əsirgəməyəcəyik” [24].

Pakistanla Azərbaycan münasibətlərini şərtləndirən amil təkcə mədəni və dini yaxınlıq ilə sərhədlənmir. Pakistan hazırda Azərbaycanla hərbi əlaqələri genişləndirməkdə olduqca maraqlıdır.

1991 -1992-ci illər müstəqil Azərbaycan Respublikasi üçün dünya dövlətləri tərəfindən ardıcıl şəkildə tanınmaq vədiplomatik münasibətlərin yaradılması ilə xarakterizə olunur. Azərbaycanın dünyə dövlətləri ilə ikitərəfli siyasi münasibətlər qurması ikitərəfli səviyyədə iqtisadi və mədəni əlaqələrin inkişafına da yol açmış oldu.

Azərbaycan Respublikasının daxili iqtisadi, siyasi və mənəvi tələbatının ödənilməsi onun dünya ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulmasını və inkişafını, milli maraqlarına cavab verən xarici siyasət yürüdülməsini tələb edir. Bu mənada Azərbaycanın xarici siyasətdə üstünlük verdiyi istiqamətlərdən biri strateji tərəfdaşlarla əməkdaşlığın hərtərəfli inkişafıdır. Bu baxımdan Pakistan ilə olan siyasi - diplomatik münasibətlər böyük əhəmiyyət kəsb edir.

Pakistan İslam Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 12 dekabr 1991-ci il tanımış, iki dövlət arasında diplomatic əlaqələr 9 iyun 1992-ci ildə yaranmış, Pakistanın Azərbaycanda səfirliyi isə 12 mart 1993-cü ildə açılmışdır. Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında səfirliyi 24 avqust 1997-ci ildə təsis edilmişdir [23].

Ümumiyyətlə, Azərbaycan - Pakistan münasibətlərinin inkişafını iki dövrə ayırmaq olar:

1) 1991 - 1993 - cü illəri əhatə edən birinci dövr iki ölkə arasında diplomatik münasibətlərin yaranması ilə xarakterizə olunur;

2) 1993 - cü ildən sonrakı dövr iki ölkə arasında bütün sahələrdə əlaqələrin inkişafi müşahidə olunur.

İkitərəfli münasibətlərin üçüncü dövrü kimi isə 2020 - ci ildə Azərbaycanın Ermənistan üzərində şanlı qələbəsinin tarixini yazmış 44 günlük müharibə zamanı Pakistan dövləti rəhbərliyinin və Pakistan xalqının ölkəmizə və xalqımıza olan dəstəyini nəzərə alaraq bu ili ikitərəfli münasibətlərin tarixində əsaslı il adlandırmaq olar ki, məhz 2020 - ci ildə Azərbaycan xalqı təkcə Türkiyə Cümhuriyyəti yox, həm də Pakistan İslam Respublikası kimi bir qardaşının olduğunu bir daha əyani şəkildə görmüş oldu. Xalqımızın müqəddəs üçrəngli bayrağımızı Türkiyə və Pakistan bayraqları ilə bərabər dalğalandırması isə iki dövlət arasında olan 30 illik münasibətlərin ən yüksək səviyyəsini göstərmiş oldu. Buna görə də, düşünürük ki, 2020 - ci il iki ölkə rasında olan münasibətlərin inkişafında xüsusi bir səhifə açdığından, yeni bir dövr kimi xarakterizə oluna bilər.

Ümumiyyətlə, Pakistan - Azərbaycan diplomatik - siyasi münasibətlərini analiz edərkən nəzərə alınmalıdır ki, iki ölkənin münasibətlərinin kökünü təkcə İslam dini ilə bağlamaq düzgün deyil. Hər iki dövlətin qarşılıqlı əlaqələrdə siyasi və iqtisadi maraqları böyük önəm daşıyır. Pakistan zəngin neft və təbii qaz ehtiyatlarına malik olan Azərbaycanın karbohidrogen ehtiyatlarının onun ərazisindən keçməklə dünya bazarına çıxmasında maraqlıdır. İslam dünyasında liderlik uğrunda mübarizə aparan

Pakistan bu baxımdan Azərbaycan da daxil olmaqla müsəlman çoxluğu olan ölkələrlə sıx əlaqələr qurur, onlarla hərtərəfli münasibətlərin qurulmasına xüsusi önəm verir. Digər tərəfdən Azərbaycan Pakistanla hərbi sahədə əlaqələrdə olduqca maraqlıdır və iki ölkə arasında bu istiqamətdə əməkdaşlığı nəzərdə tutan bir sıra sənədlər imzalanmışdır. Hərbi sahədə əməkdaşlıq Azərbaycan ordusunun nüfuzlu Pakistan ordusunun təcrübəsindən yararlanmasında mühüm rol oynaya bilər.

Ümummilli Lider Heydər Əliyev hələ müstəqilliyimizin ilk illərindən Pakistan-Azərbaycan münasibətlərinin inkişafına böyük önəm verirdi. O, iki ölkə arasında olan münasibətlərə verdiyi əhəmiyyəti bu cür dəyərləndirir və səciyyələndirirdi: “Pakistan ilə Azərbaycan arasında çox yaxşı əlaqələr, dostluq əlaqələri var. Bu əlaqələr keçmiş tarixi ənənələrimizin üzərində qurulub”.

Pakistanla Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət xəttindəprioritet istiqamətlərdən biri hesab edilir. 8-10 iyul 2004-cü ildə Pakistan Prezidenti Pərviz Müşərrəfin Bakıya, 12 aprel 2005 - ci ildə isə İlham Əliyevin Pakistana rəsmi səfəri iki qardaş ölkə arasında ikitərəfli və çoxtərəfli əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş imkanlar açmışdır. Belə ki, səfər zamanı iki dövlət arasında hərbi əməkdaşlıq haqqında bir sıra vacib sənədlər imzalanmışdır.

Bugün Pakistan ölkəmizin əsas hərbi və strateji tərəfdaşlarından biri hesab edilir. Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Pakistan İslam Respublikası Birləşmiş Qərargahı arasında Azərbaycan-Pakistan işçi qrupu mövcuddur. Pakistanla Azərbaycan arasında parlamentlərarası münasibətlər də yaxşı inkişaf etmişdir. Pakistan Senatının Beynəlxalq Münasibətlər Komitəsi 1 fevral 2012-ci ildə Azərbaycannın tarixinin ən qanlı səhifələrindən olan Xocalı şəhərində baş vermiş soyqırımı tanımışdır. Qəbul edilmiş bu sənəddə Pakistan Senatı bir daha ölkəmizin ərazi bütövlüyünü tanıdığını təsdiq etmiş və onun beynəlxalq səviyyədə tanınmış sərhədlərini tanıdığını bird aha bəyan etmişdir. Ümumilikdə Azərbaycan ilə Pakistan arasında 34 sənəd imzalanmş, 17 sənəd isə baxılmaqdadır [23].

Bugün Azərbaycan- Pakistan əlaqələri yeni inkişaf mərhələsinə daxil olmuşdur. Xüsusilə qeyd olunmalıdır ki, İkinci Qarabağ Vətən müharibəsi zamanı qardaş Pakistan ölkəmizin haqlı savaşına siyasi və mənəvi dəstək göstərdi. 14 yanvar 2021-ci ildə Azərbaycan, Türkiyə və Pakistanın Xarici İşlər nazirlərinin Pakistanın paytaxdı İslamabad şəhərində keçirilmiş üçtərəfli görüşü regional və beynəlxalq arenada çoxcəhətli və çoxtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük və geniş imkanlar açmışdır. Pakistana səfər zamanı Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Pakistan Prezidenti Arif Alvi ilə görüşmüş, həmçinin xarici işlər nazirləri qarşılıqlı əməkdaşlıq haqqında yeni saziş imzalamışlar ki, bu da ölkələrarası əlaqələrin genişləndirilməsinə şərait yaratmışdır. Pakistan İslam Respublikası Ordusunun Baş Qərargah rəisi, ordu generalı Qamar Cavidin "Pakistan hər zaman Azərbaycanın yanında olub və onun haqlı mövqeyini dəstəkləyib" sözləri iki ölkə arasında mövcud olan etimadın mühüm bir göstəricisidir [21].

# II FƏSİL. AZƏRBAYCAN - PAKİSTAN MÜNASİBƏTLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## 2.1. Strateji tərəfdaşlıq münasibətlərinin formalaşması

1991 – ci ildə Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuş Pakistan ilə 1992 – ci ildən qurulmuş diplomatik münasibətlər siyasi müstəvidə ikitərəfli əməkdaşlığın inkişafında xüsusi rol oynayır. Cənubi Asiyanın ən nüfuzlu dövlətlərindən biri olan, nüvə silahına malik yeganə müsəlman dövləti olan Pakistan ilə Azərbaycan arasındakı münasibətlər strateji müttəfiqlik səviyyəsindədir [8].

Diplomatik münasibətlərin qurulmasından başlayaraq iki ölkə arasında mütəmadi qaydada yüksək səviyyəli siyasi əlaqələr həyata keçirilir. Belə siyasi münasibətlərin başlanğıcı 1995-ci ilin oktyabrında Pakistanın o zamankı prezidenti Sərdar Faraq Əhməd Xan Leqarinin ölkəmizə rəsmi səfəri ilə qoyulmuşdur. Bunun ardınca Ulu Öndər Heydər Əliyevin 1996-cı ilin aprel ayında Pakistana rəsmi səfəri baş tutmuşdur. Bu səfər iki ölkə arasında münasibətlərin inkişafında əvəzsiz rol oynayıb. Bu səfər zamanı iqtisadi, siyasi, mədəni sahələrdə əməkdaşlığa dair mühüm müqavilələr imzalanmışdır ki, bu da iki ölkə arasında müxtəlif sahələrdə əlaqələri daha da möhkəmləndirmişdir. Ümummilli Lider Heydər Əliyev iki ölkə arasında münasibətləri belə səciyyələndirmişdir: “Pakistan ilə Azərbaycan arasında çox yaxşı əlaqələr, dostluq əlaqələri var. Bu əlaqələr keçmiş tarixi ənənələrimiz üzərində qurulur. Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyi haqqında bəyanat verdikdən sonra Pakistan ölkəmizin öz müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Sonrakı dövrdə, xüsusən axırıncı illərdə də Pakistanla Azərbaycan arasında çox yaxşı əlaqələr yaranıbdır” [17].

2000-ci illərin ortalarından başlayaraq Azərbaycanla Pakistan arasında diplomatik – siyasi münasibətlər daha da inkişaf etmiş və ölkə başçıları səviyyəsində yeni görüşlər həyata keçirilmişdir. Belə ki, 2004-cü ilin iyulunda Pakistan Prezidenti Pərviz Müşərrəf Azərbaycana rəsmi səfər etmiş, səfər zamanı Azərbaycan Respublikasının prezidenti İlham Əliyevlə görüşmüş və görüş zamanı Pərviz Müşərrəf Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycanın haqlı mövqeyini daim

müdafiə etdiyini çox qəti şəkildə bildirmişdi. Həmçinin ölkə rəhbərləri qarşılıqlı münasibətlərin inkişaf istiqamətləri barədə danışıqlar aparmış, dövlət əhəmiyyətli bir sıra sənədləri - narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında, beynəlxalq terrorçuluq, turizm, gömrük işi sahəsində hökumətlərarası sazişləri imzalamışdılar. Yekun olaraq Azərbaycan və Pakistan arasında Birgə Bəyannamə qəbul edilmişdi.

2005-ci ilin aprelində isə prezident İlham Əliyev Pakistanda rəsmi səfər etmiş, iki ölkə prezidentlərinin görüşü zamanı sosial-siyasi həyatın müxtəlif sahələri üzrə 6 əməkdaşlıq sazişi imzalanmışdı.

Azərbaycan və Pakistan ölkələrarası münasibətlərdən əlavə, beynəlxalq təşkilatlar formatında da əlaqələr saxlamışlar. Bu kontekstdə dövlətlərimizin İƏT çərçivəsində əlaqələrini xüsusi qeyd edə bilərik.

Dövlət rəhbərləri səviyyəsində görüşlərdən əlavə, Azərbaycan-Pakistan münasibətlərində parlamentlərarası əlaqələr də mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, 2008-ci ilin iyununda Pakistan Senatının sədri Muhammadmian Sumro ölkəmizdə səfərdə olmuş, Azərbaycan Parlamentinin 90 illiyi münasibətilə təşkil olunmuş tədbirdə iştirak etmişdi. 2013-cü ilin fevral ayında isə Milli Məclisin sədri Oqtay Əsədov İqtisadi Əməkdaşlıq Təşkilatının Parlamentlərarası Assambleyasının 1 – ci iclasında iştirak etmək üçün Pakistana işgüzar səfər etmişdir.

Geosiyasi müstəvidə Azərbaycan özünə nüfuzlu müttəfiq əldə etmiş, bu isə beynəlxalq aləmdə dövlətimizin mövqelərinin daha da güclənməsinə şərait yaratmışdı. 2016-cı ildə Ermənistanla aprel döyüşləri zamanı isə məsələyə münasibət bildirən Pakistan prezidentinin katibi Əhməd Fərrux demişdi ki Pakistan həmişə Azərbaycanın yanındadır və Azərbaycan bizim qardaş və dost ölkəmizdir.

Beynəlxalq səviyyəli bir sıra tədbirlərdə Pakistan daim Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycanın mövqeyini müdafiə etmiş, ölkəmizə qarşı törədilən erməni təcavüzünü qətiyyətlə pisləmişdir. Eyni zamanda, Pakistan dünyada yeganə dövlətlərdən biridir ki Ermənistanla diplomatik əlaqələr qurmamış, onu ümumiyyətlə

dövlət kimi tanımamışdır. Nəticə etibarilə deyə bilərik ki, Azərbaycan – Pakistan strateji tərəfdaşlığı bu gün də uğurla inkişaf etməkdədir.

Dost və qardaş ölkələr olan Pakistan ilə Azərbaycan arasındakı münasibətlərin strateji müttəfiqlik səviyyəsində olduğunu vurğulamaq lazımdır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycanla Pakistanın bir-birinə qarşılıqlı dəstəyi ölkələrimiz arasında olan əməkdaşlığın qardaşlıq xüsusiyyətini əks etdirir.

Prezident İlham Əliyev Pakistanın yeni Baş naziri İmran Xana göndərdiyi təbrik məktubunda da iki ölkə arasında olan münasibətlər "dost və qardaş xalqlarımızın iradəsindən qaynaqlanan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri birləşdirir" [34].

Azərbaycan ilə Pakistan arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan münasibətlərin müvəffəqiyyətlə inkişaf etməsi və bu dərəcə yüksək səviyyədə olmasının əsas səbəblərindən biri də odur ki, Pakistan son 30 ildə Ermənistan adlı bir dövləti tanımamış, bu ölkə ilə heç bir sahədə münasibət qurmamışdır. Pakistan Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti yürütməsinə görə bu ölkəni indiyədək tanımayıb [33]. Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış Xocalı faciəsi ilə əlaqədar Pakistan İslam Respublikasının parlamenti və müxtəlif qurumları tərəfindən çoxsaylı sənədlər də qəbul olunmuşdur. 2020 – ci il isə bu dostluq tarixində xüsusi bir səhifə təşkil edir. Belə ki, 44 günlük İkinci Qarabağ müharibəsinin ilk günlərindən Pakistan özü və Pakistan xalqı öz qətiyyətli mövqeyini nümayiş etdirərək Azərbaycanın haqq işini dəstəkləmiş, ölkəmizə hərtərəfli siyasi və mənəvi dəstək nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin sədri xanım Sahibə Qafarovanın rəhbərliyi ilə ölkə parlamentinin nümayəndə heyətinin Pakistana rəsmi – işgüzar səfəri zamanı Pakistan dövlətinin başçısı və Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysər və Pakistan Senatının sədri Məhəmməd Sadiq Sancrani ilə keçirilmiş görüş zamanı Pakistan rəsmiləri bildirmişdilər ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsindən böyük sevinc və qürur duyurlar. Onlar hər zaman Pakistanın

ölkəmizin suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini və bundan sonra da dəstəkləyəcəyini bir daha vurğulamışlar. Bu görüşlərdə parlamentlərarası əlaqələrin hərtərəfli inkişafının perspektivləri ətraflı müzakirə olunmuş, ikitərəfli siyasi, iqtisadi, ticarət, mədəni və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanmışdır [31].

Azərbaycanın İkinci Qarabağ Vətən müharibəsi zamanı torpaqlarını işğaldan azad etməsinə baxmayaraq, Ermənistan Azərbaycan hökumətinin Qarabağda başladığı bərpa və quruculuq işlərinə mane olur, minalanmış ərazilərin xəritələrini verməkdən yayınır, bu səbəbdən, hələ də hərbi qulluqçular və dinc əhali arasında itkilər hələ də baş verir. Bundan başqa Ermənistan sərhəddə təxribatlar törətməkdə davam edir, Azərbaycan ərazilərinə terrorçuların keçməsinə imkan və şərait yaradır, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra ölkəmizin ərazisində həbs olunmuş erməni təxribatçıları "hərbi əsirlər" kimi qələmə verməyə çalışır. Ermənistanın bu cür hərəkətlərinin qarşısını almaq və dəf etmək üçün beynəlxalq təşkilatlara təsir göstərilməsi və bu istiqamətdə beynəlxalq sənədlərin qəbul olunması olduqca vacibdir. Bu baxımdan Pakistanın Azərbaycanla birgə üzv olduğu nüfuzlu beynəlxalq və regional təşkilatlarda təşəbbüs irəli sürməsi və qeyd olunan istiqamətlərdə sənədlərin qəbul olunmasına nail olunması Azərbaycanın diplomatik uğuru ola bilər.

Azərbaycan ilə Pakistan arasında dövlətlərarası və parlamentlərarası münasibətlərin inkişafına verdikləri dəstəyə görə Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysər və Pakistan Senatının sədri Məhəmməd Sadiq Sancrani Azərbaycan Respublikası Milli Məclisinin Fəxri medalı ilə təltif edilmişlər. Pakistan Senatında və Milli Assambleyasında Azərbaycanla parlamentlərarası dostluq qrupu da fəaliyyət göstərir. İki dost və qardaş ölkə arasında mövcud olan münasibətlər, o cümlədən parlamentlərarası əlaqələr daha çox inkişaf etdirilməlidir.

Azərbaycan ilə Pakistan arasında mövcud olan əlaqələr dərin tarixi köklərə malik olmaqla yanaşımüasir dünyada cərəyan edən siyasi proseslər fonunda davamlı inkişaf yolunda irəliləməkdədir. Son illər iki ölkə arasında müxtəlif sahələrdə dinamik

formada inkşaf etdirilən çoxşaxəli əməkdaşlıqbu münasibətlərin qarşıdan gələn illərdə daha intensiv formada davam etdirilməsinə xüsusi zəmin yaratmaqdadır.

Prezidenti İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında 15 İyun – Azərbaycanın Milli Qurtuluş Günündə Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan – Türkiyə dostluq və müttəfiqliyini ən yüksək səviyyəyə qaldırmaqla gələcəkdə Azərbaycanla Pakistan arasında da strateji müttəfiqlik və siyasi-hərbi əməkdaşlığın möhkəmləndirilməsi üçün belə bir bəyannamənin imzalanmasına yol aça bilər [32].

Bu gün Pakistanı tam əminliklə Azərbaycanın Türkiyədən sonra dünyadakı ikinci əsas strateji müttəfiqi hesab etmək olar. İki ölkə arasında münasibətlər həm ikitərəfli, həm də çoxtərəfli əlaqələr çərçivəsində çox intensivdir və Azərbaycan ilə Pakistan birgə təmsil olunduqları beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış edirlər.Azərbaycan – Pakistan münasibətlərinin gələcəyini müsbət dəyərləndirən Ulu öndər Heydər Əliyev 1996 – cı ildə Pakistana səfəri zamanı onun şərəfinə təşkil olunan ziyafətdə çıxış edən zaman qeyd etmişdir ki, “Apardığımız danışıqlar göstərir ki, Pakistan-Azərbaycan münasibətlərinin çox böyük perspektivi, gələcəyi var. İqtisadi əlaqələrin inkişaf etdirilməsində müştərək nailiyyətlər əldə edə bilərik. Müştərək işlər görülməsi üçün mən Pakistan nümayəndələrini Azərbaycana dəvət etmişəm və bu gün də dəvət edirəm. Əmin ola bilərsiniz ki, biz bu əməkdaşlığın inkişafı üçün səylərimizi əsirgəməyəcəyik” [17].

Pakistanla Azərbaycan arasında sıx əməkdaşlıq Prezident İlham Əliyevin hakimiyyətdə olduğu illərdə, xüsusən də son illərdə sürətlə genişlənmişdir. Qeyd olunmalıdır ki, Prezident İlham Əliyev istər Azərbaycan Respublikasının baş naziri olduğu dönəmdə, istərsə də prezident seçildiyi ilk illərdən bugünədək Pakistan ilə münasibətlərə xüsusi önəm vermişdir. İlham Əliyevin baş nazir olduğu dönəmdə 2003 – cü il sentyabrın 25 – də Pakistan Prezidenti Pərviz Müşərrəf ilə ilk görüşü olmuş və ölkələr arasında qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında müzakirələr aparılmışdır.

2004 – cü il iyul ayında Pakistan prezidenti Pərviz Müşərrəf Azərbaycana 3 günlük rəsmi səfər etmişdir ki, bu səfər siyasi və diplomatik münasibətlərin inkişafı baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Çünki bu səfər zamanı iki ölkə arasında mövcud olan münasibətləri daha da inkişaf etdirmək üçün qadağan olunmuş maddələrin qanunsuz ticarəti, turizm, beynəlxalq terrorçuluq, gömrük işi sahəsində hökumətlərarası sazişlər imzalanmış, həmçinin iki dövlət başçısının Birgə Bəyannaməsi imzalanmışdır. Bu görüş zamanı Pakistan bir daha Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü pozaraq Dağlıq Qarabağı işğal etməsi nəticəsində yaranmış Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ğlkəmizin mövqeyini müdafiə etdiyini bir daha vurğulamışdır.

2005 – ci il aprel ayında Prezident İlham Əliyevin Pakistana rəsmi səfəri də dövlətlərarası münasibətlərin inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Bu səfər zamanı iki ölkə arasında bağlanmış müqavilələr bazası daha da genişləndirilərək informasiya və kommunikasiya, maliyyə və təhsil, nəqliyyat, aviasiya, mədəniyyət və digər sahələrdə əməkdaşlıq sazişləri imzalanmışdır.

2008 – ci ildə Pakistanda keçirilən prezident seçkilərində qalib gəlmiş Asif Əli Zərdari Pakistanın xarici siyasət strategiyasını davam etdirərək Azərbaycanla olan dostluq münasibətlərinin inkişafında maraqlı olduğunu göstərmişdir.

Növbəti illərdə də Pakistanın müxtəlif dövlət və hökumət nümayəndə heyətlərinin Azərbaycana rəsmi səfəri olmuşdur. Buraya 2008 – ci il iyunda Pakistan Parlamentinin sədri Muhammadmian Sumronun, həmin ilin iyul ayında Pakistan Senatının xarici əlaqələr daimi komitəsinin sədri Müşahid Hüseyn Səidin, 2009 – cu il may ayında Pakistanın Müdafiə Sənayesi Federal Naziri Əbdül Qəyyum Xan Catoyun, 2013 – cü ildə Pakistan Senatının sədr müavini Sabir Əli Bəlucun, 2015 – ci ilin may ayında Pakistanın Maliyyə, Gəlir, İqtisadi məsələlər, Statistika və Özəlləşdirmə naziri Mohammad İshaq Darın, həmin ilin noyabrında Pakistan Senatının müdafiə komitəsinin sədri Müşahid Hüseyn Səidin, 2016 – cı ilin mart ayında Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Rəşad Mahmudun,

həmin ilin sentyabr ayında Pakistanın Müdafiə Sənayesi Naziri Rana Tanvir Hussainin, dekabrda isə ticarət naziri Xürrəm Dastgir Xanın, 2017 – ci il noyabrda Pakistanın xarici işlər naziri Xavaca Məhəmməd Asifin, 2018 – ci ilin iyun ayında isə Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatın rəhbərlik etdiyi nümayəndə heyətlərinin ölkəmizə səfərlərini qeyd etmək olar [39,40,41,42,43,44,45,46,47,48].

Prezident İlham Əliyevin Pakistan baş naziri Məhəmməd Nəvaz Şərif ilə 2016 – cı il 21 yanvar tarixində Davosda keçirdiyi görüş diplomatik münasibətlərin və strateji tərəfdaşlığın yüksək həddə çatmasında mühüm rol oynamışdır. Bu görüş zamanı İlham Əliyev bildirmişdir ki, "Bizim üçün Pakistan dünyada ən yaxın müttəfiq ölkələrdəndir və biz tərəfdaşlığımızın daha da gücləndirilməsini istəyirik." [43] Bu görüşün aktual məsələlərindən biri də iqtisadi əlaqələri inkişa etdirərək siyasi əlaqələr səviyyəsinə qaldırmaq olmuşdur. Çünki Azərbaycan ilə Pakistan arasında energetika, nəqliyyat, investisiya yatırımı, təhlükəsizlik sahəsində əməkdaşlığın böyük perspektivi vardır. 2017 – ci il 28 fevralda Pakistan baş naziri Məhəmməd Nəvaz Şərif ilə [49] və 2019 – cu il 26 oktyabrda Pakistan Prezidenti Arif Alvi ilə keçirilən görüşlər [50] Azərbaycan – Pakistan münasibətlərinin siyasi – diplomatik müstəvidə inkişafına böyük zəmin yaratmaqla yanaşı, iqtisadi, hərbi, humanitar və digər sahələrdə də daha böyük irəliləyiş əldə olunmasında mühüm rol oynamışdır.

Son 10 ildə baş tutmuş yüksək səviyyəli qarşılıqlı səfərlər, xüsusən də Prezident İlham Əliyevin Pakistana son səfəri bir daha sübut edir ki, iki ölkə arasında sıx tərəfdaşlpıq və müttəfiqlik münasibətləri qurulmuşdur. Ümumiyyətlə, Pakistan Azərbaycanın nüvə silahına malik olan ən yaxın müttəfiqi sayılır. Azərbaycanın Pakistanla mövcud müttəfiqlik münasibətlərinin daha da dərinləşməsinin olduqca böyük əhəmiyyəti var. Çünki Pakistan, a) Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını nəzərə alaraq bu dövləti dövlət kimi tanımayan tək ölkədir; b) nüvə silahına malik yeganə müsəlman ölkəsidir; c) yüksək səviyyədə inkşaf etmiş müdafiə sənayesinə malik müsəlman ölkəsi kimi Azərbaycan üçün vacib bir tərəfdaşdır; d)

Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək üçün başlayacağı haqq savaşında qeyd – şərtsiz və birmənalı şəkildə Azərbaycanın daim yanında olacağını bəyan etmiş iki ölkədən biridir; e) Türkiyə ilə strateji müttəfiqlik münasibətlərinə malik bir ölkədir.

Sadalanan bütün bu amillər Pakistanın Azərbaycan üçün geosiyasi və geostrateji əhəmiyyətini ortaya çıxarmış olur. Əgər məsələyə Azərbaycan – Türkiyə - Pakistan müttəfiqliyi kontekstindən yanaşılsa, o zaman Azərbaycanın təhlükəsizliyi baxımından bu müttəfiqliyin əhəmiyyəti daha aydın formada ortaya çıxır. Məhz bu səbəbdən Pakistan Azərbaycan üçün çox əhəmiyyətli müttəfiq ölkələrdən biri hesab edilir və Pakistanla iqtisadi, siyasi, hərbi əməkdaşlığın yüksək səviyyəyə çatdırılması Azərbaycan üçün həyati əhəmiyyət daşıyır. Hərbi əməkdaşlığın möhkəmləndirilməsi üçün isə Azərbaycanla Pakistan arasında hərbi əməkdaşlığı əks etdirən müqavilə bağlanmalıdır və bu müqavilənin bağlanması üçün də kifayət qədər əsas var [36].

Keçmiş Sovet İttifaqı dövlətlərindən Pakistanla ən sıx əməkdaşlığa malik olan ölkə Azərbaycandır və bu sıx münasibət iki dövlətin tarixi və mövcud xarici siyasət strategiyası ilə əlaqədardır. Belə ki, oxşar mədəniyyətə, eyni dinə və üst – üstə düşən geosiyasi baxışlara malik Azərbaycan və Pakistan terrorizmlə mübarizə, regional münaqişələrə qarışmamaq kimi məsələlərə çox ciddi və ehtiyatlı yanaşırlar. Onlar Suriya münaqişəsi kimi regional münaqişələrə daxil olmamaq üçün ehtiyatlı xarici siyasət yürüdürlər.

Pakistan və Azərbaycanın əməkdaşlığı üçün yaxşı inkişaf potensialına malik sahələrdən biri də hərbi sahədir. 2018-ci ildə Pakistan Silahlı Qüvvələrinin üzvləri Bakıda səfərdə olduqları zaman iki ölkənin hərbi və müdafiə sahəsində əməkdaşlığı məsələsi geniş müzakirə olunmuşdur və görüşlərdə Azərbaycanın Pakistan və Çinin birgə istehsalı olan yeni "JF-17 Thunder" döyüş təyyarəsini almaqda maraqlı olması fikri səsləndirilmişdir. Azərbaycanın "JF-17 Thunder" döyüş təyyarəsinə sahib olmaq marağı Azərbaycanın təkcə Pakistan ilə deyil, eyni zamanda Pakistanın əsas müttəfiqlərindən sayılan Çin ilə əlaqələrin inkişaf etdirilməsinə işarə edir.

2019 – cu ilin sonunda Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin öz çıxışında Çinin “Kəmər və Yol Təşəbbüsü”nü (Belt and Road Initiative (BRI)) dəstəklədiyini bildirməsi və Azərbaycanın Bakı-Tbilisi-Qars dəmir yolunun Çin ilə Avropa arasında etibarlı gəmiçiliyi təmin edəcəyini və asanlaşdıracağını bildirməsi də təsadüfi deyil. Çünki Pakistan “Kəmər və Yol Təşəbbüsü” layihəsinin əsas iştirakçılarından biridir və İslamabad Bakı ilə Pekin arasında daha sıx diplomatik münasibətlərin dərinləşməsində mühüm rol oynaya bilər. Bundan başqa, Pakistan həm də Azərbaycanın nüfuzlu regional təşkilatlara, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatına üzv olmasında vasitəçi ola bilər. Azərbaycanın Pakistana davamlı dəstəyi isə öz növbəsində İmran Xan hökuməti üçün böyük əhəmiyyət daşıyır və Bakının müxtəlif beynəlxalq tribunalarda Kəşmir məsələsini qaldırması və Pakistana bu məsələdə daimi dəstək nümayiş etdirməsi İslamabad üçün olduqca vacibdir [16].

Pakistanın Avrasiya regionu üzrə digər əsas müttəfiqi olan Türkiyə ilə hərtərəfli əlaqələrin inkişaf etdirilməsində Azərbaycan mühüm rol oynaya bilər. Türkiyə ilə Pakistan arasında mövcud olan bu müttəfiqlik münasibətləri, Azərbaycanın Pakistan və Türkiyə olan strateji tərəfdaşlığı Pakistan – Türkiyə –Azərbaycan üçlüyünü gücləndirəcək.

Azərbaycan ilə Pakistan arasında yüksək səviyyədə olan siyasi və diplomatik münasibətləri, strateji tərəfdaşlıq əlaqələrini iqtisadi sahədə də reallaşdırmaq hal – hazırda iki ölkənin qarşısında duran əsas vəzifələrdən biridir. Azərbaycan ilə Pakistanın beynəlxalq arenada bir-birini dəstəkləməsi, ortaq geosiyasi maraqları və bu ikitərəfli əlaqələri beynəlxalq münasibətlərin digər aktorları ilə yaxınlaşmaq siyasətində istifadə etmək imkanları yaxın gələcəkdə də iki ökənin siyasi münasibətlərini yüksək səviyyədə saxlayacaq.

## 2.2. Müdafiə, hərbi-texniki sahədə əməkdaşlıq

Azərbaycan ilə Pakistan arasında mövcud olan əməkdaşlıqda hərbi-siyasi faktor çox mühüm rol oynayır. 1995-ci ildə Pakistan Prezidenti Sərdar Taruq Əhməd Xan Leqarinin Azərbaycana səfəri, 1996-cı ildə isə Ümummilli Lider Heydər Əliyevin Pakistana səfəri Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında Azərbaycanın ədalətli mövqeyini əks etdirən müsbət həllini tapması üçün iki ölkə arasında müdafiə və hərbi-texniki sahələrdə əməkdaşlığın daha uğurla inkişaf etməsinə zəmin yaratdı.

1993 – cü ildə Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra hökumət ölkəmizin hərbi təhlükəsizliyini təmin etmək iqtidarında olan müasir silahlı qüvvələrin yaradılması məsələsini diqqət mərkəzində saxlamışdır.Bu istiqamətdə həyata keçirilən daxili islahatlarla yanaşı, digər ölkələrlə hərbi əməkdaşlığın qurulması istiqamətində ciddi addımlar atılmışdır [12].

Azərbaycanın hərbi doktrinasına əsasən, yeni hərbi texnologiyaların alınması və müasir sənaye sahələrinin yaradılması məqsədilə digər dövlətlərlə hərbi-texniki əlaqələr qurur və mövcud əlaqələri inkişaf etdirilir [51]. Bu kontekstdə iki ölkə arasında hərbi əməkdaşlığın hüquqi bazasını 2002 – ci ilin sentyabr ayında Pakistanın Kəraçi şəhərində imzalanmış Müdafiə və Hərbi Əməkdaşlıq Sazişi təşkil edir [13]. Bu sazişdə Pakistan ilə Azərbaycanın hərbi – siyasi sahədə tərəfdaşlığının prioritet istiqamətləri və prinsipləri əks olunmuşdu. Bu müqavilə ilə iki ölkə arasında hərbi sahədə əlaqələr daha da genişlənmiş, silahlı qüvvələrimiz üçün Pakistan istehsalı olan təyyarələr və digər silah növləri əldə edilmişdi.

2015-ci ilin martında Pakistanın Birləşmiş Qərargahının Xarici Hərbi Əməkdaşlıq Baş İdarəsinin direktoru general – mayor İftixar Vayn Azərbaycanda səfərdə olmuş, ikitərəfli hərbi əməkdaşlıq əlaqələrinin gücləndirilməsi istiqamətində danışıqlar aparmış, həmçinin Azərbaycan və Pakistan ikitərəfli hərbi əməkdaşlıq

protokolu imzalanmışdı. Həmin dövrdə Ermənistan ilə müharibə vəziyyətində olan Azərbaycan üçün bu hərbi əlaqələr mühüm əhəmiyyət kəsb edirdi. Pakistanla hərbi tərəfdaşlığımız ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsinə önəmli təsir etmiş, həmçinin zabit kadrlarımız Pakistanın ali hərbi məktəblərində təhsil alaraq daha da təkmilləşmək imkanı qazanmışdılar [52].

Pakistanın baş naziri Pərviz Müşərrəf 2004 – cü ildə Azərbaycana səfəri zamanıiki ölkənin müdafiə sahəsində ümumi maraqlarının olduğunu bildirmiş vəAzərbaycana əməkdaşlıq təklif etmişdir. Pərviz Müşərrəf həmçinin Azərbaycan hərbçilərinin təlim keçməsi məqsədilə Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyətini öz kurslarına qəbul etməyə hazır olduqlarını bildirmişdir [53].

Daha sonra 2013 – cü il mart ayında Pakistanın təşkil etdiyi “AMAN – 2013” hərbi dəniz təlimində Azərbaycan da daxil olmaqla 30 – dan çox ölkə iştirak etmişdir. Bunun ardınca 2014 – cü il fevralda keçirilən Hərbi Əməkdaşlıq İşçi Qrupunun 5 – ci iclasında Pakistan və Azərbaycan arasında İkitərəfli Hərbi Əməkdaşlıq Sazişi imzalanmış, bu sənəd 2015 və 2016 – cı illərdə Bakıda və İslamabadda keçirilən İşçi Qruplarıniclasları zamanı yenilənmişdir.

2016 – cı il sentyabr ayında Pakistanın müdafiə sənayesi naziri Rana Tanvir Hüseynin Bakıya səfəri zamanı Prezident İlham Əliyev iki ölkə arasında müdafiə və hərbi sənaye sahəsində əməkdaşlığın bundan sonra daha da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etmiş, Azərbaycanın Pakistan və Çinin birgə istehsalı olan JF – 17 qırıcı təyyarəsini idxal etməkdə maraqlı olduğunu bildirmişdir. Bu maraq Azərbaycanın Pakistanla hərbi əməkdaşlığını gücləndirmək istəyinin göstəricisidir.

Bundan başqa Azərbaycan ilə Pakistan arasında 2017-ci ilin iyulunda imzalanmış müqavilədə Azərbaycanın Pakistandan silah və hərbi texnologiyalar alması nəzərdə tutulur. Bu məsələ ilə bağlı Azərbaycan prezidenti İlham Əliyev bildirib ki, biz bir tədarükçüdən asılı olmamaq üçün silahı müxtəlif mənbələrdən alırıq. İmzalanmış müqaviləyə əsasən, Azərbaycan Hərbi Hava Qüvvələri üçün

Pakistandan "Super Mushshak" təlim təyyarəsi almışdır. Bu təyyarələr istənilən səthə enə bilən ən təhlükəsiz təlim təyyarəsi hesab olunur [54].

Bu gün Azərbaycan Rusiya, Türkiyə, İsrail, Belarus, Ukrayna, İtaliya, İran, CAR və Cənubi Koreyakimi dövlətlərdən silah və hərbi texnologiyalar alır. İndi isə Pakistandan qırıcı təyyarələr alınıb. Bu müqaviləiki ölkənin iqtisadi və siyasi sahədə çoxillik əməkdaşlığınınbəhrəsihesab edilə bilər [35].

Azərbaycanın Pakistan ilə hərbi əməkdaşlığın genişləndirilməsi Azərbaycan üçün bir sıra prioritetlər yaradır. Belə ki, bu gün dünyada hərbi sənayesi yüksək səviyyədə inkişaf etmiş 10 qabaqcıl ölkədən biri Pakistandır. Azərbaycanın Silahlı Qüvvələrinin arsenalında Pakistanla Çinin birgə istehsalı olan müasir döyüş texnikasının olması Azərbaycan ordusuna böyük üstünlüklər gətirmişdir. Azərbaycan Pakistandan müasir standartlara cavab verən orta və yaxın mənzilli ballistik raketlər almışdır. "Şahin-1" adlanan bu raketlər 750 kilometr məsafədə hədəfi məhv etmək qabiliyyətinə malikdir. "Hatf-1" raketi isə "Şahin-1"in təkmilləşdirilmiş formasıdır və daha uzaq məsafədə yerləşən hədəfi vura bilir. Onun uçuş məsafəsi 3,000 kilometrdir. Bu raketlər olduqca yüksək dəqiqliyə malikdir və hava hücumundan müdafiə sistemləri onları tuta bilmir. Raketlər strateji obyektlərin, lazımi infrastrukturun və komanda məntəqələrinin dağıdılması və məhv edilməsi üçün nəzərdə tutulmuşdur. Pakistan kimi hərbi sənayesi bu dərəcədə yüksək inkişaf etmiş bir ölkə ilə müttəfiq olmaq isə Azərbaycanın üstünlüyüdür.

Öz növbəsində Pakistan da Azərbaycanda istehsal olunan müdafiə sənayesi məhsullarına maraq göstərir. Pakistan ordusunun silah portfelində Azərbaycan istehsalı olan "İstiqlal" snayper tüfəngi və və bu silah 2012 – ci ildən Pakistan Xüsusi Təyinatlı Qrupunun terrorçulara qarşı xüsusi əməliyyatlarında geniş istifadə olunur [55].

Azərbaycanın Pakistan ilə hərbi sahədə əməkdaşlığının keyfiyyətcə yeni bir müstəviyə çıxarılması üçün kifayət qədər geniş potensial var. Bu məsələ 2021 – ci il iyunun 21 – də Azərbaycanın Müdafiə Naziri Zakir Həsənov ilə görüşən Pakistan

Quru Qoşunlarının Komandanı general Qamar Caved Bacva tərəfindən vurğulanmış, Pakistanın Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərinin minalardan və digər partlamamış sursatlardan təmizlənməsi prosesində iştirak etməyə hazır olduğunu qeyd olunmuşdur. Görüş zamanı hərbi, hərbi – texniki, hərbi – təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirəedilmiş, dağ təlimi mərkəzlərinin iki ölkə tərəfindən birgə istifadəsi və Azərbaycanın dağ – təlim heyətinin hazırlanması, həmçinin birgə təlimlərin keçirilməsi barədə razılıq əldə olunmuşdur [56]. Qeyd olunmalıdır ki, Azərbaycan ilə Pakistan silahlı qüvvələrinin birgə hərbi təlimlər keçirməsi haqqında müqavilə 2003-cü il may ayında imzalanmışdır və bu müqavilə hər il keçirilən hərbi təlimlərdə Azərbaycanın xüsusi təyinatlılarının Pakistan silahlı qüvvələri ilə birgə iştirakını nəzərdə tutur.

Beləliklə, Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlıq gün – gündən inkişaf edir. Son illər ikitərəfli hərbi əlaqələrlə yanaşı, üçtərəfli hərbi təlimlər məsələsi də gündəmdədir.Belə ki, Pakistan Türkiyə ilə Azərbaycanın birgə təşkil etdiyi “TurAz Təlimləri”ndə iştirak etmək istədiyini bildirmişdir. Bu isəyaxın gələcəkdə Azərbaycan – Türkiyə – Pakistan üçtərəfli hərbi əməkdaşlığının mümkünlüyü deməkdir. Azərbaycan, Pakistan və Türkiyə arasında üçtərəfli hərbi əməkdaşlığın qurulması istiqamətində ilk addım 2017 – ci ilin noyabr ayında üç ölkənin xarici işlər nazirlərinin görüşü zamanı atılmışdır. Bakı Bəyannaməsini imzalanması ilə üç ölkə enerji, nəqliyyat və mədəniyyət sahəsində əməkdaşlıqla yanaşı, müdafiə və təhlükəsizlik sahəsində də əməkdaşlığa hazır olduqlarını bildirmişlər [57].

Üçtərəfli hərbi əməkdaşlığın reallaşması istiqamətində mühüm irəliləyiş kimi Pakistan hərbçilərinin 19 sentyabr 2019 – cu il tarixində keçirilən “Qafqaz Qartalı – 2019” təlimində müşahidəçi qismində iştirakı, həmçinin, 2020 – ci ildə 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Pakistanın Azərbaycana qeyd – şərtsiz dəstək verməsi qeyd olunmalıdır [58].

Ordunun müdafiə qabiliyyətinin inkişafı və hərbi sənayenin inkişaf etdirilməsinə böyük önəm verən Azərbaycan Pakistanla məhz hərbi sahədə əlaqələrin

daha da dərinləşməsində maraqlıdır. Çünki müdafiə sənayesinin modernləşdirilməsi və xarici ölkələrlə əməkdaşlıq sayəsində Pakistan çox güclü bir ordu qurmağı bacarmışdır. Bu isə Azərbaycana imkan yaradır ki, Pakistanın ordu quruculuğu təcrübəsindən yararlansın. Bundan başqa, Pakistan silahlarını və hərbi texnikasınıdaha ucuz qiymətə əldə etmək mümkündür. Pakistan Silahlı Qüvvələrində tətbiq olunan qaydalar, istifadə edilən silah və hərbi texnika NATO standartlarına uyğunlaşdırılmışdır. Həmçinin, Pakistanın nüvə silahına malikolması bu dövlətə Asiya qitəsində xüsusi status verir. Sadalanan faktlardan çıxış edərəkAzərbaycan Pakistanı hərbi əməkdaşlıqda etibarlı tərəfdaş kimi qəbul edir. Pakistan da öz növbəsində xarici investisiya cəlb etməkdə maraqlıdır və bu marağın reallaşdırılmasında Azərbaycan xüsusi rola malikdir. Yəni, Pakistan da Azərbaycanı özünün son dərəcə etibarlı tərəfdaşı hesab edir. Ona görə də tərəflər arasında hərbi əməkdaşlığın inkişafı hər iki ölkənin maraqlarına xidmət edir və uyğun gəlir. Beləliklə, iki ölkə arasında hərbi sahədə əməkdaşlığın yaxın gələcəkdə davam edərək daha da inkişaf edəcəyini proqnozlaşdırmaq olar [11].

### 2.3. İqtisadi-ticarət və mədəni sahələrdə münasibətlərin formalaşması və inkişafı

Pakistan və Azərbaycan ortaq tarixi, mədəni və dini dəyərlərə malikdir. Azərbaycanın 1991 – ci ildə dövlət müstəqilliyini yenidən qazanmasından sonra iki ölkə arasında əlaqələr siyasi, diplomatik, müdafiə, iqtisadi və humanitar sahələrdə inkişaf etmişdir. Amma Azərbaycanın Pakistan ilə olan ikitərəfli iqtisadi – ticarət əlaqələri böyük potensial olmasına baxmayaraq, yüksək səviyyədə deyil. İki ölkə arasında 1995 – ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində Ticarət və İqtisadi Əməkdaşlıq haqqında Saziş imzalanmış və beləliklə iqtisadi əməkdaşlığın ilk addımı atılmışdır. Daha sonra 9 Oktyabr 1995-ci ildə Bakı şəhərində “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Hökumət səviyyəsində Azərbaycan-Pakistan Birgə Komissiyasının yaradılması haqqında

Protokol" imzalanmış, 2000-ci ildə yeni yaradılan Birgə Komissiyanın ilk iclası Bakıda keçirilmişdir.

Azərbaycan və Pakistan malik olduqları iqtisadi güclərinə müvafiq olaraq iqtisadiyyatın müxtəlif sektorlarında qarşılıqlı təcrübə mübadiləsi aparmaqla ikitərəfli ticarətin həcmini əhəmiyyətli dərəcədə artıra bilərlər.

Britaniyalı iqtisadçı Cim O`Neilin proqnozlaşdırdığı kimi Pakistanın dayanıqlı və şaxələndirilmişdir iqtisadiyyatı 2050 – ci ilədək dünyanın on səkkizinci ən böyük iqtisadiyyatı olmaq potensialına malikdir [15, s.43]. Pakistan iqtisadiyyatında kənd təsərrüfatı sektoru dominant sektor olaraq qalmaqdadır. Ölkə pambıq, iplik və düyü kimi kənd təsərrüfatı məhsullarının ixracında üstünlüyə malikdir. Pakistan Hökuməti 2013 – cü ildə xarici investorların ölkəyə cəlb olunmasını nəzərdə tutan İnvestisiya Siyasətini elan etdi. Pakistanın strateji mövqeyi, işçi qüvvəsinin ucuz olması, ucuz torpaqların mövcudluğu və 100 faiz məbləğin repatriasiyası siyasəti onu regionda investisiya yatırmaq üçün cəlbedici ölkəyə çevirmişdir. Pakistanın son illər Çin-Pakistan İqtisadi Dəhlizi layihəsi üzərindən həyata keçirdiyi regional inteqrasiya siyasətiölkənin iqtisadi perspektivlərini artırmışdır.Bundan başqa, şist neft və qaz ehtiyatlarının aşkarlanmasından sonra Pakistan neft və qaz sektorunda investisiyalar üçün əlverişli ölkəyə çevrilmişdir [59].

1991-ci ildə müstəqillik əldə etdikdən sonra Azərbaycan dünyanın 150-dən çox ölkəsi ilə iqtisadi və ticarət əlaqələri inkişaf etdirmişdir. Hökumət xarici investisiyaların təşviqi və qorunması, həmçinin ikiqat vergitutmanın qarşısının alınması üçün 30 – dan çox ikitərəfli saziş imzalamışdır. Həmçinin, ölkədə biznesin qurulması üçün sabit, proqnozlaşdırıla bilən və əlverişli qanunvericilik bazanın yaradılması məqsədilə ticarət müqavilələri və digər sənədlər də imzalanmışdır.

Son illər həyata keçirilən qarşılıqlı səfərlər, həmçinin təşkil olunan biznes forumlar iki ölkənin iqtisadi əlaqələri gücləndirmək niyyətindən xəbər verir. Məsələn, Azərbaycan İxrac və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) vitse-prezidenti Yusif Abdullayev 2017-ci il 8-11 fevral tarixində 16 şirkətin nümayəndələrindən və

Fondun əməkdaşlarından ibarət Azərbaycan ixrac missiyasına rəhbərlik etmiş və bu missiya Pakistanda işgüzar səfərdə olmuşdur. Həmin il iyul ayının 28-də Bakıda Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında ticarət sahəsində əməkdaşlıq üzrə Birgə İşçi Qrupunun ilk iclası keçirilmişdir. Bu iclasa Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahil Babayev və Pakistanın ticarət katibi Məhəmməd Yunus Dağan həmsədrlik etmiş, iclas zamanı hər iki ölkə arasında ticarət əlaqələrinin inkişafı, həmçinin ixracın qarşılıqlı şəkildə artırılması məsələləri müzakirə olunmuş, "Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu ilə Pakistanın Ticarətin İnkişafı Qurumu arasında əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır. Daha sonra 7-8 dekabrda kənd təsərrüfatı sahəsində Azərbaycan-Pakistan Birgə İşçi Qrupunun 1-ci iclası keçirilmişdir. Azərbaycanın Kənd təsərrüfatı naziri Heydər Əsədov və Pakistanın Milli ərzaq təhlükəsizliyi və tədqiqatı naziri Sikandar Həyat Xan Bosanın iştirakı ilə keçirilən iclasda kənd təsərrüfatı üzrə təcrübə mübadiləsi və birgə tədqiqat ların aparılması sahələrində əməkdaşlığın inkişaf etdirilməsi, kənd təsərrüfatı məhsulları üzrə ikitərəfli ticarətin təşviq olunması və sadələşdirilmısi, mal-qara rüşeymi, embrionu və camış toxumu mübadiləsi, xüsusi təhlükəli heyvan xəstəliklərinin qarşısının alınması üçün laboratoriya diaqnostikasının aparılması və heyvandarlıq məhsullarında yarana biləcək risklərin idarə olunması üzrə təcrübə mübadiləsi, Pakistandan Azərbaycana yüksək məhsuldarlığa malik cins camışların ixracı məsələsinin araşdırılması, fitosanitar risklərin düzgün idarə olunması üzrə təcrübə mübadiləsinin aparılması, mütərəqqi suvarma üsullarının və texnologiyalarının tətbiq olunması ilə bağlı olan təcrübə mübadiləsinin həyata keçirilməsi, aqrar elmi-tədqiqat, aqrar universitetlər arasında ikitərəfli əlaqələrin qurulması və inkişaf etdirilməsi və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmiş, yekunda Birgə işçi Qrupunun 1-ci protokolu imzalanmışdır.

2018-ci il iyul ayının 4-də AZPROMO – nun təşkilatçılığı ilə Azərbaycan-Pakistan Biznes konfransı keçirilmişdir. Tədbirdə hər iki tərəfdən kənd təsərrüfatı, sığorta, sənaye, logistika, turizm, əczaçılıq, tikinti və digər sahələrdə fəaliyyət

göstərən 250-ə yaxın iş adamı iştirak etmişdir. Konfrans çərçivəsində AZPROMO və Pakistanın Ravalpindi Ticarət və Sənaye Palatası (RCCI) arasında iqtisadi-ticarət və investisiya əlaqələrinin inkişaf etdirilməsinə, ixracın və xarici sərmayələrin təşviqi sahəsində təcrübə mübadiləsinə dair Anlaşma Memorandumu imzalanmışdır.11 oktyabr 2018-ci ildə İslamabadda Azərbaycan ilə Pakistan arasında ticarət sahəsində əməkdaşlıq üzrə Birgə İşçi Qrupunun növbəti-2-ci iclası keçirilmişdir. Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov və Pakistanın ticarət katibi Məhəmməd Yunus Dağanın rəhbərlik etdiyi bu iclasda iki ölkə arasında mövcud olan qarşılıqlı ticarətin müxtəlif aspektləri barədə ətraflı fikir mübadiləsi aparılmışdır. İclasın sonunda Birgə İşçi Qrupunun protokolu imzalanmışdır [23].

Pakistan və Azərbaycan arasında ticarətin həcmi 2005 – ci ildə 2,944 milyon ABŞ dolları idisə, 2020 – ci ildə bu rəqəm 13,283 milyon ABŞ dolları olmuşdur [60]. Azərbaycanın Pakistana ixracı 2020- ci ildə 1,657.57 milyon ABŞ dolları, idxalı isə eyni ildə milyon 11,625.54 milyon ABŞ dolları olmuşdur [61].

Azərbaycan ilə Pakistan arasında ticarət dövriyyəsinin həcminin aşağı olmasının müxtəlif səbəbləri vardır. Əvvəla, pakistanlı iş adamları Azərbaycanda fəaliyyət göstərən Türkiyə, İran və MDB ölkələrindən olan iş adamlarının böyük rəqabəti ilə üzləşirlər. MDB ölkələrinin iş adamları üçün əsas üstünlük ondan ibarətdir ki, onlar öz arasında ticarət rüsumlarından azaddırlar və yalnız 18% Əlavə Dəyər Vergisi (ƏDV) ödəyirlər, amma Pakistan şirkətləri ƏDV ilə birlikdə 20-120 % arasında idxal rüsumu ödəməlidirlər ki, bu da onları Azərbaycan bazarındakı MDB ölkələrinin iş adamlarına qarşı rəqabətdə zəiflədir. İkincisi, Pakistan məhsullarının Azərbaycana daşınma xərcləri onların bizim bazardakı qiymətlərinə mənfi təsir göstərir. İran və Türkiyə şirkətləri ölkələrinin Azərbaycan ilə coğrafi yaxınlığına görə daşıma xərclərində üstünlüyünə malikdirlər və bu ölkələr arasında təbii ticarət axını mövcuddur. Azərbaycanda təxminən 400 – dən çox türk şirkəti və müxtəlif türk bankları, eləcə də bir çox İran şirkəti fəaliyyət göstərir ki, bu da bu ölkələrin biznes mühitini və imkanlarını daha da yaxşılaşdırır. Amma Azərbaycanla ticarət fəaliyyəti

ilə məşğul olan Pakistan şirkətinin sayı çox azdır və onlar ancaq kiçik və orta səviyyədə fəaliyyət göstərirlər. Üçüncüsü, Pakistan malları üçüncü ölkə tərəfindən, xüsusilə Birləşim Ərəb Əmirlikləri və İrandan Azərbaycana təkrar ixrac edilir. Pakistan hökuməti bu cür sənədsiz yenidən ixrac probleminin aradan qaldırılması üçün müxtəlif addımlar atır. Dördüncüsü, Pakistan və Azərbaycan arasında birbaşa uçuşların olmaması kommersiya ticarətinə mənfi təsir göstərir. Bu problem xüsusən də dolayı səyahət marşrutlarına sərf olunan vaxtı nəzərə alaraq səyahət etməkdə çətinlik çəkən iş adamları üçün problemlər yaradır.

Amma bütün bunlara baxmayaraq, Azərbaycan ilə Pakistan arasında ticarəti inkişaf etdirmək üçün böyük imkanlar var. Belə ki, kənd təsərrüfatı məhsulları, xüsusən də düyü, pambıq məhsulları, hazır geyim və toxuculuq məhsulları Pakistandan Azərbaycana ixrac oluna bilər ki, bu da iki ölkə arasında ticarətin həcmini əhəmiyyətli dərəcədə artıra bilər. Ticarət dövriyyəsinə mühəndislik və istehlak malları, əczaçılıq məhsulları, idman malları, cərrahi alətlər kimi məhsullar da əlavə oluna bilər. Azərbaycan neft və qaz kəşfiyyatı sektorunda malik olduğu geniş təcrübəsini Pakistana təklif edə bilər. Azərbaycan həmçinin Pakistanın enerji sektoruna investisiya yatıra bilər. Çünki məhz bu sektora qoyulan investisiyalar Pakistanın "Xarici İnvestisiyaların Mühafizəsi Aktı 1976" əsasında yüksək dərəcədə təhlükəsizliyə malikdir.

İki ölkə bir-birinə Ən çox bəyənilən millət (MFN) statusu verməklə ticarət fəaliyyətlərini asanlaşdıra və ticarət əlaqələrini əhəmiyyətli dərəcədə gücləndirə bilər. MFN statusu aşağı tariflər, idxal kvotalarının həcminin artırılması və prosedur müdafiələri də daxil olmaqla müxtəlif üstünlüklərə malikdir. İki ölkə arasında siyasi və strateji əlaqələrin əlverişli olmasını nəzərə alaraq qeyd etmək olar ki, Azərbaycan ilə Pakistanın Azad Ticarət Sazişi (FTA) və ya Preferensial Ticarət Sazişinin (PTA) imzalanması çox vacibdir. Bu müqavilələr özəl sektorun bazara çıxış imkanlarını daha da genişləndirmək üçün ən effektiv vasitə hesab edilir.

2017-ci ilin yanvar ayından Azərbaycan Pakistanı sadələşdirilmiş viza prosedurlarının - onlayn viza sisteminin şamil olunduğu ölkələrin siyahısına daxil etmiş, nəticədə ölkəmizə səfər edən pakistanlıların sayında böyük artım müşahidə olunmuşdur [23]. Son illər hər iki ölkədən gələn turistlərin sayı 10 dəfədən çox artmışdır. Bu artımı qüvvədə saxlamaq üçün Azərbaycan Pakistana birbaşa uçuşların yaradılmasını təklif etmişdir ki, burada əsas məqsəd uçuş qiymətlərinin aşağı salınması, turizmin inkişafının təşviq edilməsi və azərbaycanlılarla pakistanlılar arasında sosial – mədəni əlaqələrin artırılmasıdır.Azərbaycan həmçinin pakistanlılar üçün viza verilməsi prosesini asanlaşdırmışdır ki, bu da turizm sənayesi və insanlar arasında qarşılıqlı əlaqə üçün mühüm addım hesab edilir.Gələcəkdə bu əlaqələrin daha da möhkəmlənməsi proqnozlaşdırılır, çünki hər iki ölkənin ikitərəfli biznesi inkişaf etdirmək üçün böyük potensialı var. Azərbaycanın Pakistana əsas ixrac məhsulları silah, tekstil və müxtəlif faydalı qazıntılardır. Hər iki ölkə öz məhsullarını bir – birinin bazarına ixrac etməklə böyük gəlir əldə edə və iqtisadi artıma nail ola bilərlər.Həmçinin qarşılıqlı ixrac hər iki ölkənin əmək bazarında yeni iş imkanları yarada bilər və sənayeləşmənin yeni üsullarını tətbiq edilməsinə imkan yarada bilər [12].

Xəzər dənizində zəngin enerji resurslarına malik olan Azərbaycan öz geostrateji mövqeyinə görə bu resursların Avropaya nəqli üçün geniş imkanlara malikdir. Pakistan isə öz növbəsində Mərkəzi və Cənubi Asiya regionu arasında tranzit xarakterli geosiyasi mövqeyə sahibdir. Cənubi Asiya ilə Mərkəzi Asiyanın iqtisadi baxımdan qarşılıqlı əlaqəsinin olması Pakistan və digər regional dövlətlər üçün iqtisadi inkişaf və sülhün təmin olunması deməkdir.Azərbaycan və Pakistan müvafiq olaraq yerləşdikləri Cənubi Qafqaz və Cənubi Asiya regionunda tranzit və logistika mərkəzi rolunu oynaya bilərlər.

Bir ölkənin geostrateji mövqeyi onun dəyişdirilə bilməyən reallığıdır. Azərbaycan və Pakistan malik olduqları geostrateji mövqedən düzgün istifadə edən ölkələrdir. Belə ki, Azərbaycan Şərqin Avropaya qapısı kimi çıxış edir, Pakistan isə

Cənubi, Qərbi və Mərkəzi Asiyanın kəsişməsində yerləşir. Azərbaycan "Cənub Qaz Dəhlizi" kimi mühüm bir layihənin təşəbbüskarıdır, Pakistan isə Çinin "Kəmər və Yol Təşəbbüsü"nün (BRI) mühüm bir hissəsi olan "Çin Pakistan İqtisadi Dəhlizi"nin (CPEC) əsas iştirakçısıdır. Azərbaycan Şərq-Qərb Strateji Dəhlizi, Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi və Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin, Pakistan isə Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan qaz kəməri (TAPI), Orta Asiya-Cənubi Asiya (CASA-1000) enerji layihəsi və Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) proqramının mərkəzi aktorudur. Beləliklə, Azərbaycan və Pakistanın geostrateji mövqeyi, enerji resursları və əlaqələndirici potensialın balanslaşdırılmış qarşılıqlı təsiri nəticəsində hər iki ölkənin yaxın gələcəkdə regional və qlobal iqtisadi müstəvidə öz aktuallığını qoruyub saxlaması gözlənilir.

Qeyd olunan layihələr artıq regiondaxili əlaqələrin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir, bununla yanaşı, regionlararası əlaqələrin gücləndirilməsinə ehtiyac var. Buna nail olmaq üçün Cənubi Asiyanı İran vasitəsilə Mərkəzi Asiya, Rusiya, Türkiyə və Avropa ilə birləşdirilməsi əhəmiyyətli ola bilər. Bu əlaqələndirmənin ən yaxşı yolu "Çin Pakistan İqtisadi Dəhlizi"nin Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi ilə əlaqələndirilməsidir. Əgər qeyd olunan əlaqələndirmə reallaşarsa, region aktorları əhəmiyyətli gəlirə, qarşılıqlı mənfəətə və ortaq inkişafa nail ola bilərlər [62].

Azərbaycan və Pakistan arasında böyük ticarət potensialı mövcuddur. İki ölkə arasında birbaşa hava nəqliyyatının – aviareyslərin olmaması qarşılıqlı ticarətin inkişafına mane olan səbəblərdən biridir. Pakistan iqtisadiyyatının sürətli artım tempi və bazarının geniş olması Azərbaycana imkan verir ki, bu ölkəyə böyük investisiyalar yatırsın. Həmçinin pakistanlı sahibkarlar Azərbaycan iqtisadiyyatına investisita qoya, Azərbaycan vasitəsilə Mərkəzi Asiya və Rusiya bazarlarını daha yaxından araşdıra bilərlər. Azərbaycanda mövcud olan biznes üçün əlverişli mühit, dövlət və özəl sektor arasında tərəfdaşlıq, ticarətin asanlaşdırılması üçün mövcud qanunvericilik bazası, tarif və qeyri-tarif maneələrinin aradan qaldırılması, vergidən azadolmalar və azad

ticarət sazişləri Pakistan ilə Azərbaycan arasında ticarət əlaqələrini inkişaf etdirə, ümumi iqtisadi münasibətləri irəli apara bilər [13].

Azərbaycan Pakistan ilə ikitərəfli ticarəti daha da inkişaf etdirməkdə maraqlıdır, çünki hər iki ölkənin bir çox sahələrdə ticarət və iqtisadi əməkdaşlığı genişləndirmək üçün geniş imkanları var. Azərbaycan Rusiya da daxil olmaqla, regionun 10 ölkəsi ilə azad ticarət sazişi imzalamışdır, bu isə o deməkdir ki, Pakistan investorları Azərbaycana investisiya qoymaq və onunla ticarət əməkdaşlığını artırmaqla bütün bu region ölkələrinə ixracı təşviq edə bilərlər. Həmçinin, Azərbaycan Covid – 19 pandemiyasının bitməsindən sonra Pakistanla dəmir yolu və birbaşa uçuşların yaradılmasında maraqlıdır [63].

Həmçinin, böyük potensiala malik Pakistan əczaçılıq şirkətləri Azərbaycanda istehsal müəssisələri yarada bilərlər ki, bu da ikitərəfli iqtisadi münasibətlərin inkişafında böyük rol oynaya bilər. Azərbaycanda yaradılan azad iqtisadi zonalar pakistanlı investorlar üçün əlverişli ola bilər. Pakistan ishetsalı olan əczaçılıq, kosmetika, cərrahi alətlər, idman malları, bıçaq, elektrik cihazları, tekstil və dəri məhsulları, mebel, qida və meyvə məhsulları, mühəndislik və istehlak malları, düyü kimi bir çox keyfiyyətli Pakistan məhsulları Azərbaycan bazarına daha çox həcmdə ixrac oluna bilər. Pakistanda "Çin Pakistan İqtisadi Dəhlizi" nəzdində yaradılan bir çox xüsusi iqtisadi zonalar 10 illik vergi tutulmasından azaddır və Azərbaycan investorları bu xüsusi iqtisadi zonalara investisiya yatırılması imkanlarını dəyərləndirməlidirlər.

Azərbaycan ilə Pakistan arasında humanitar sahədə sıx əlaqələr mövcuddur. Pakistanın yürütdüyü diplomatiya İslam qardaşlığına əsaslanır. Bu diplomatik yanaşmaya görə Pakistan özünə dost xalqlar qazanmışdır və bu xalqlar Pakistanın çətin günlərində onun yanında olurlar. Bu ölkələrdən biri də Azərbaycandır [14, s.667-679].

Pakistan və Azərbaycan zəngin dini və mədəni əlaqələrə malikdir. Bu münasibətlər illər ərzində daha da möhkəmlənərək, yüksələn xətlə inkişaf etmişdir.

Pakistanın filosof şairi Əllamə Məhəmməd İqbalın poeziyası Azərbaycanda yaxşı tanınır və Bakı Dövlət Universitetində urdu dili bölümü fəaliyyət göstərir. 10 aprel 1996-cı ildə Gəncə və Multan arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə imzalanıb. 2004-cü ildə Pakistanın İslamabad şəhərində "Görkəmli Azərbaycan mütəfəkkiri Cəlil Məmmədquluzadə əsərləri ilə" adlı kitab ingilis və urdu dillərində nəşr edilib [64].

Humanitar sahədə ikitərəfli münasibətlərin inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulanmalıdır. Heydər Əliyev Fondu müntəzəm olaraq Pakistana humanitar yardım layihələrini həyata keçirir. Heydər Əliyev Fondu Pakistan İslam Respublikasında bir sıra həyati vacib layihələr həyata keçirmişdir. Bu layihələr sırasında zəlzələdən zərər çəkmiş məktəblərin təmir olunması, tibb müəssisələrinin müvafiq avadanlıqlarla təchiz edilməsi var [38].

Mehriban Əliyeva 2005-ci ildə Kəşmirdə Müzəffərabaddakı zəlzələdən sonra qızlar məktəbinin əsasını qoymuş, məktəbin inşasına ümumilikdə 1 milyon dollar dəyərində yardım göstərmişdir. 2007-ci ildə Pakistanda baş vermiş zəlzələ zamanı Azərbaycan bu ölkəyə həkimlər qrupu, xeyli dərman, avadanlıq, təlim keçmiş xilasedici dəstə göndərib, Pakistana 1,5 milyon dollar həcmində maddi yardım edilib [27].

2010-2012-ci illərdə Pakistanda daşqınlar zamanı da 1 milyon dollar həcmində yardım göstərilmişdir. Məhz humanitar sahədə görülmüş işlər sayəsində Mehriban Əliyeva 2015-ci ildə Pakistanın ali mükafatı olan “Hilal-e Pakistan” ordeni ilə təltif edilmişdir. Bundan başqa Bakı Dövlət Universiteti Pakistan Prezidenti Məmnun Hüseyni "Fəxri doktor” dərəcəsi ilə mükafatlandırmışdır. Bütün bunlar iki xalq arasında mövcud olan qardaşlığın və bağlılığın çox bariz təzahürüdür. Pakistan da öz növbəsində 1992-ci ildə və 1993-cü ilin əvvəllərində Azərbaycana 1 milyon dollar həcmində yardım etmişdir [65].

2012-2018-ci illərdə Mehriban Əliyevanın dəstəyi və təşəbbüsü ilə Həmzə Xeyriyyə Fonduna xüsusi qanköçürmə va kiçik laboratoriya ilə təchiz olunmuş, 1 təcili tibbi yardım avtomobili və 2000 qanköçürmə paketi təqdim olunmuş, Xayber Göz Fondunun yeni blokunun və gözləmə otaqlarının tikintisi üçün maddi yardımlar edilmiş, Dera İsmayıl Xan bolgəsində Heydər Əliyev Su Təchizatı sistemi yaradılmış, Peşəvar Serebral İflic və Peşəvar Ana va Uşaq xəstəxanasında pulsuz müayinə təşkil edilmiş, Külsum İnternational klinikasında ürək üstündə açıq əməliyyatlar aparılmış, Xayber Paxtunxva əyalətində on minlərlə insan hepatit B virusuna qarşı peyvənd olunmuş, həmçinin Rara Qızlar məktəbi və Pakistanın 12 universitetlərində təhsil alan tələbələrə xüsusi təqaüdlərin verilməsi həyata keçirilmişdir. Pakistanın Pəncab əyalətinin Qucarxan bölgəsində "20 Yanvar Şəhidlər Bulağı"nın açılışı həyata keçirilmiş, Pakistan Nazirlər Kabinetinin nəzdində fəaliyyət göstərən "Pakistan Sweet Home" (Beyt-ul-Mal) təşkilatının Talasemiya Mərkəzinə 500 sayda qan paketi təqdim edilmişdir.

2015-ci ildə Pakistan İslam Respublikası Nazirlər Kabinetinin nəzdində fəaliyyət göstərən Al-Farabi əlillər evində Azərbaycan Respublikası Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AİDA) dəstəyi ilə tədbir keçirilmiş, bu tədbir zamanı AİDA adından 120 əlil arabası və əlillərin reabilitasiyası üçün zəruri olan xüsusi avadanlıq və ləvazımatlar Əl-Farabi mərkəzinə hədiyyə edilmişdir.

Bundan başqa 2012-2018-ci illər ərzində müqəddəs Ramazan və Qurban bayramları ilə əlaqədar İslamabadda və müxtəlif əyalətlərdə kimsəsizlər üçün iftar süfrələri, həmçinin humanitar tədbirlər keçirilmiş, kimsəsiz uşaqlara və yaşlılara müxtəlif hədiyyələr təqdim edilmiş, qurbanlıqlar kəsilərək əhalinin ehtiyac sahibi olan kasıb təbəqəsinə paylanmışdır.

Pakistan həmçinin Azərbaycanın ev sahibliyi etdiyi humanitar tədbirlərdə də yaxından iştirak edir. Belə ki, 16-17 mart 2017-ci ildə Pakistanın sabiq Baş naziri Şövkət Əziz "Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar" mövzusunda V Qlobal Bakı Forumunda iştirak etmişdir. 5-6 may 2017-ci ildə Pakistanın Milli

Assambleyasının sədr müavini Murtaza Caved Abbasinin başçılıq etdiyi nümayəndə heyəti IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün Azərbaycana səfər etmişdir. 21 dekabr 2017-ci ildə "2017 - İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransda iştirak etmək məqsədilə Pakistan Senatının sədr müavini Molana Abdul Qafur Heydəri Azərbaycana səfər etmişdir. 15-17 mart 2018-ci ildə Pakistanın sabiq Baş naziri Şövkət Əziz VI Qlobal Bakı Forumunda iştirak etmək üçün Azərbaycana səfər etmişdir [23].

Pakistan həmçinin 44 günlük İkinci Qarabağ Vətən müharibəsindən sonra Azərbaycana humanitar yardım göndərmişdir. Yardım hərbçilər və işğaldan azad edilmiş ərazilərdə işləyən digər şəxslər üçün nəzərdə tutulmuşdur [66].

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva 2004-cü ildə Heydər Əliyev Fondunun prezidenti vəzifəsinə təyin edilmişdir. Fond təhsil, səhiyyə, mədəniyyət, idman, ətraf mühit və digər sahələrdə müxtəlif layihələr həyata keçirməklə Azərbaycanın sosial-iqtisadi inkişafına töhfələr verir. Fondun fəaliyyəti tədricən dost ölkələrə, o cümlədən Pakistana da aid olmağa başladı. 2005-ci ilin oktyabrında Pakistanda zəlzələ baş verdikdən sonra Fond 2007-ci ildə Müzəffərabadın Rara qəsəbəsində zəlzələ nəticəsində dağılmış qızlar məktəbinin tikintisi kimi müxtəlif humanitar layihələrdə fəal iştirak etmişdir. 2011-ci ildə daşqınlar nəticəsində zərər çəkmiş məktəb 2012-ci ildə tam şəkildə yenidən inşa edilmiş, təmir və təchiz edilmiş, davamiyyəti ilə seçilmiş tələbələrə isə təqaüdlər verilmişdir. 2012-ci ildə hepatit B peyvəndi İslamabadda Edhi və KPK kimsəsiz evlərinə təqdim olunmuş, 40 min nəfərə yaxın şəxsə həmin peyvənd istifadə edə bilmişdir. Fond, həmçinin qanköçürmə məqsədilə Həmzə Fonduna tam təmin edilmiş təcili tibbi yardım maşınını və 2000 qan paketini çatdırmış, Peşəvərdə Xayber Göz Fondunun klinikasının yeni blokunun tikintisinə maliyyə yardımı ayırmışdır. 2013-cü ildə isə Fond Azərbaycanın 12 nüfuzlu universitetində pakistanlı tələbələr üçün sosial elmlər üzrə universitetlərarası konsorsiuma 36 təqaüd ayırmışdır.[85]

# III FƏSİL. AZƏRBAYCANLA PAKİSTAN ARASINDA ÇOXTƏRƏFLİ ƏMƏKDAŞLIQ MEXANİZMLƏRİ

## 3.1. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində qarşılıqlı münasibətlər

Pakistan İslam Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlər beynəlxalq və regional təşkilatlar çərçivəsində də davam etdirilir ki, iki dövlətin sıx əməkdaşlıq etdiyi və bir – birinə qarşılıqlı dəstək göstərdiyi təşkilatlardan biri də İslam Əməkdaşlıq Təşkilatıdır.

Öz tarixi, mənəvi və mədəni dəyərləri ilə islam dünyasının əsas və ayrılmaz hissəsi olan Azərbaycan Keçmiş Sovet İttifaqının müsəlman respublikaları arasında birinci olaraq İslam Əməkdaşlıq Təşkilatına üzv olmaq üçün müraciət etmiş və 1991-ci il dekabrın 8-də təşkilata üzv olmuşdur ki, bununla da beynəlxalq aləmdə ölkəmiz üçün yeni imkanlar açılmışdır. Belə ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı və ona üzv dövlətlərin hərtərəfli və ardıcıl dəstəyinə nail oldu. Müstəqilliyinin ilk illərində diplomatiyasının qarşısına Dağlıq Qarabağ münaqişəsində beynəlxalq dəstəyə nail olmaq məqsədi qoyan Azərbaycan bu təşkilata üzv olduğu ilk illərdə ölkəmizin mövqeyini dəstəkləyən bəyanatlar verirdisə, daha sonrakı illərdəmünaqişə haqqında qətnamələr qəbul etmişdir. Sözügedən qətnamələrdə Ermənistan-Azərbaycan münaqişəsi birmənalı şəkildə Ermənistanın ölkəmizə qarşı təcavüzü kimi dəyərləndirilir. İslam Əməkdaşlıq Təşkilatı xarici işlər nazirlərinin 1993-cü ildə Pakistanın Karaçi şəhərində keçirilmiş XXI, 1994-cü ildə Mərakeşin Kasablanka şəhərində keçirilmiş XXII, 1995-ci ildə Qvineyanın paytaxtı Konakri şəhərində keçirilmiş XXIII konfransları Ermənistan-Azərbaycan münaqişəsi haqqında qətnamələr qəbul etmişdir. Xarici işlər nazirlərinin 1996-cı ildə İndoneziyanın Cakarta şəhərində keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamə" əvəzinə, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" adlandırılmış, bundan sonra xarici işlər nazirlərinin və dövlət və hökumət başçılarının bütün konfranslarında münaqişəyə dair qətnamələrin adı dəyişilməz qalmışdır.

1996-cı il sentyabrın 21-də İslam İnkişaf Bankının Bakıda keçirilən Beynəlxalq İnvestisiya Konfransı zamanı çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev demişdi: "Azərbaycan tarixi köklərinə, adət-ənənələrinə, dini mənsubiyyətinə görə islam ölkəsidir və islam ölkələri ilə həm coğrafi nöqteyi-nəzərdən yaxın olduğuna görə, həm də adət-ənənələrimiz bir-birinə bənzədiyinə görə daha da səmərəli əməkdaşlıq etmək imkanına malikdir. İslam ölkələri dünyanın elə məntəqələrində

yerləşiblər ki, onların iqlimi də, torpaqları da, təbiəti də, insanları da, insanların xasiyyəti, adət-ənənələri də bir-birinə bənzərdir, bir-biri ilə bağlıdır. Bunlar hamısı ölkələrimiz arasında daha sıx əlaqələr saxlanmasını tələb edir və bunun üçün şərait yaradır...Mən islam ölkələrinin iş adamlarının, özəl sektorunun Azərbaycana gəlməsini arzulayıram və sizi ölkəmizə dəvət edirəm. İslam İnkişaf Bankının burada daha geniş fəaliyyət göstərməsini arzu edir, ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra da belə olacaqdır.”

2000 – ci illərdə təşkilat çərçivəsində qəbul edilmiş qətnamələr daha da təkmilləşdirilmiş, buraya Azərbaycanın haqlı mövqeyini dəstəkləyən yeni bəndlər əlavə edilmişdir. Bu qətnamələrin hazırlanması və qəbul olunmasında Pakistan xüsusi aktivlik nümayiş etdirmiş, Azərbaycana olan diplomatik dəstəyini bu təşkilatın tribunasından səsləndirmişdir.

Pakistan, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycana humanitar, texniki və s. yardımın göstərilməsinə də böyük dəstək göstərmiş və bunun nəticəsi olaraq İslam İnkişaf Bankı azərbaycanlı qaçqınlara humanitar yardım göstərilməsi üçün 500 min dollar və yeni iş yerlərinin yaradılması məqsədilə dəzgah və avadanlığın alınmasına 1 milyon dollar maliyyə vəsaiti ayırmışdır. Bank təmənnasız olaraqsosial-inkişaf layihələrinin həyata keçirilməsi üçün ölkəmizə 1.424 milyon dollar ayırmışdır [67].

Azərbaycanın İKT ilə əlaqələrinin 1993-cü ildən daha intensiv xarakter alması nəticəsində Azərbaycan Pakistanın maliyyə, informasiya və siyasi dəstəyindən daha geniş yararlanmağa başlamış və 1994-cü ildə ilk dəfə məhz Pakistanın diplomatik dəstəyi nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsiİKT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salınmışdır.

Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı ilə münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunun prioritet istiqamətlərdəndir və ölkəmiz üçün strateji əhəmiyyət kəsb edir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının müxtəlif qurumları ilə də sıx əməkdaşlıq edir.

2013-cü ilin fevral ayında İslam Əməkdaşlıq Təşkilatının Qahirə şəhərində keçirilmiş Zirvə Toplantısının nəticəsi olaraq qəbul edilmiş Yekun Kommünikenin 117-ci bəndində ilk dəfə olaraq "Xocalıya Ədalət" beynəlxalq təbliğat-təşviqat kampaniyasına dəstək öz əksini tapmış və 1992-ci il 26 fevralda Ermənistan Respublikası hərbi qüvvələri tərəfindən Xocalıda törədilən qətliam faciəsi "soyqırım aktı" və "insanlığa qarşı törədilmiş cinayət" kimi tanınır. 2017-ci ilin iyul ayında Kotd'İvuarın Abican şəhərində keçirilmiş İƏT XİN Şurasının 44-cü iclasında ilk dəfə olaraq "1992-ci ilin Xocalı qırğınının qurbanları ilə həmrəylik" adlı qətnamə qəbul edilmiş və Xocalı soyqırımı "müharibə cinayətləri", "insanlığa qarşı cinayət" və "soyqırım" kimi tanınaraq qətiyyətli şəkildə pislənilmişdir.

2017-ci ildə ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilmiş və bu il çərçivəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. 2017-ci ildə Azərbaycan həmçinin İslam Həmrəyliyi Oyunlarına da ev sahibliyi etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 dekabr 2017-ci il tarixli və 10 yanvar 2018-ci il tarixli sərəncamları ilə İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv ölkələrin tələbələri üçün öz təhsillərini ölkəmizin aparıcı ali təhsil müəssisələrində davam etdirməsi üçün xüsusi təqaüd ayrılmışdır. 2018-ci il oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlıq çərçivəsində görülmüş tədbirlər arasında İslam Əməkdaşlıq Təşkilatının mənzil-qərargahında Azərbaycan Demokratik Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş təntənəli tədbir keçirilmişdir.

2019-2021-ci illərdə İƏT Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasına qarşı törətdiyi təxribat və çoxsaylı hücumları pisləyəy bəyanatlarla çıxış etmişdir ki, bu bəyanatlar Azərbaycan-Pakistan dostluğunun beynəlxalq müstəvidə, xüsusən də İƏT çərçivəsində inkişaf dinamikasını göstərir [68].

Beləliklə, Azərbaycanın Cənubi Qafqaz regionunun lider dövləti olaraq bu regionun siyasi, iqtisadi atmosferinin formalaşmasında həlledici təsirə malik olması artıq beynəlxalq səviyyədə qəbul olunmuşdur. Malik olduğu imkanlardan yararlanaraq daxili sabitlik və çoxşaxəli xarici əlaqələr əsasında bölgədə sülh və

sabitliyin təmin olunmasında mühüm fəaliyyət sərgiləyən Azərbaycan islam faktorundan çıxış edərək əsasən müsəlman dövlətlərinin üzv olduöu İslam Əməkdaşlıq Təşkilatı ilə yaxından əməkdaşlıq edir və bu təşkilatla uöurlu əməkdaşlığını şərtləndirən əsas amillərdən biri də ölkəmizin Pakistanla olan sıx və hərtərəfli tərəfdaşıq münasibətləridir.

Azərbaycan hökumətinin həyata keçirdiyi xarici siyasət kursu müxtəlif dövlətlərlə çoxşaxəli faydalı əməkdaşlığa əsaslanır və bu əlaqələrinreallaşmasında nəhəng enerji layihələri və bir sıra başqa layihələrmühüm rol oynayır. Azərbaycanın Cənubi Qafqaz regionundakı siyasəti regionun siyasi, iqtisadi gələcəyinə əhəmiyyətli dərəcədə təsir etmək gücündədir. Azərbaycanın milli maraqlara söykənən xarici siyasəti ölkəmizə gələcəkdə də böyük uğurlar qazandıracaq və beynəlxalq miqyasda nüfuzunu, mövqeyini daha da gücləndirəcək.

## 3.2. İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq

Heydər Əliyev ilə Pakistanın Baş naziri Bənazir Bhutto arasında 1994-cü ilin dekabrında İKT ölkələrinin Kasablankada keçirilən VII Sammiti çərçivəsində keçirilən görüşdən sonra iki ölkə arasındakı ikitərəfli münasibətlər daha dinamik şəkildə inkişaf etməyə başladı. 1995-ci ilin oktyabr ayında Pakistan Prezidenti Faruq Əhməd Xan Leqari Azərbaycana rəsmi səfər etdi və bu səfər zamanı “Elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq haqqında müqavilə”, 1996-cı ildə Heydər Əliyevin Pakistana səfəri çərçivəsində isə iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında və “Turizmin inkişafı üzrə Anlaşma-Memorandumu” imzalandı. Sadalanan sənədlər iki dövləti bir-birinədaha da yaxınlaşdırdı. 14 oktyabr 2002-ci ildə İstanbulda İƏT-ə üzv olan dövlətlərin VII zirvə görüşündə Ümummilli Lider Heydər

Əliyevlə Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf arasında keçirilən görüş ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsində mühüm rol oynamışdır.

İqtisadi Əməkdaşlıq Təşkilatı 1985-ci ildə İran, Pakistan və Türkiyə dövlət başçılarının ümumi qərarı ilə Avrasiya ölkələrinin regional iqtisadi inteqrasiya təşkilatı statusu ilə yaradılmışdır. 1991-ci ildə SSRİ-nin süqutundan sonra İqtisadi Əməkdaşlıq Təşkilatı postsovet müsəlman dövlətləri ilə yaxın əməkdaşlıq münasibətləri yaratmaq üçün addımlar atmış və 1992-ci ildə Qazaxıstan, Azərbaycan, Türkmənistan, Özbəkistan, Tacikistan və Qırğızıstanla danışıqlara başlamışdır. Yeni müstəqillik qazanmış bu dövlətlər qonşu müsəlman ölkələri ilə əməkdaşlıq etməkdə maraqlı idilər. Çünki, regionda və dünyada böyük nüfuza malik olan İran, Türkiyə və Pakistan vasitəsilə həm Qərb, həm də Şərq ölkələrinə çıxış əldə etmək sadalanan postsovet ölkələri üçün böyük əhəmiyyət kəsb edirdi.

Təşkilata üzv ölkələr arasında mövqeləri razılaşdırmaq və əməkdaşlıq üçün ortaq maraqları tapmaq üçün 1993-cü ildə “Kventin planı” və “Almatı Proqramı” imzalanmış, daha sonra İstanbul (1993), İslamabad (1995), Aşğabad (1996), İzmir (1996), Aşğabad (1997), Almatı (1998), Tehran (2000), İstanbul (2002), Düşənbə (2004), Bakı (2006), Tehran (2009), İstanbul (2010), Bakı (2012) və İslamabad (2017) deklarasiyalarında üzv ölkələr arasında sosial-iqtisadi və siyasi əlaqələrin ən əsas və mühüm prinsipləri, prioritetləri və istiqamətləri öz əksini tapmışdır.

2000-ci ilin iyununda İranın pytaxtı Tehranda və 2002-ci ildə İstanbulda keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının sammitlərində Azərbaycan prezidenti, Ümummilli Lider Heydər Əliyevlə Pakistan prezidenti Pərviz Müşərrəfin görüşləri baş tutmuşdur. İqtisadi Əməkdaşlıq Təşkilatının növbəti belə sammitlərindən biri (12-ci Zirvə Toplantısı) 2012-ci ilin oktyabrında Bakıda keçirilmişdir. Bununla əlaqədar Pakistan prezidenti Asif Əli Zərdari Azərbaycana işgüzar səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan və Pakistan prezidentləri arasında qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə edilmişdi.

Hal-hazırda İran, Pakistan, Türkiyə, Azərbaycan, Əfqanıstan, Qazaxıstan, Qırğızstan, Tacikistan, Türkmənistan və Özbəkistan İqtisadi Əməkdaşlıq Təşkilatının üzvüdür və bu təşkilat Avrasiya regional inteqrasiya qurumuna çevrilmişdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının öz sıralarında zəngin enerji qaynaqlarına və təbii sərvətlərə malik ölkələri birləşdirməsi, Xəzər, Qara dəniz və Fars körfəzi kimi mühüm nəqliyyat məntəqələrinin məhz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin ərazisində olması, Avropa və Asiyanı qovuşduran mühüm geosiyasi məkanda yerləşməsi bu təşkilatın dünya arenasında nüfuzuna böyük təsir göstərir. İqtisadi Əməkdaşlıq Təşkilatının işləyib hazırladığı və inşaatında iştirak etdiyi nəqliyyat magistralları Çindən Avropaya qədər böyük və geniş bir ərazini əhatə edir. Dəmir və avtomobil yolları Mərkəzi Asiya, Hind okeanı, Fars körfəzi və Afrikadan Pakistan, Türkiyə və Avropaya qədər uzanır. İqtisadi Əməkdaşlıq Təşkilatı beynəlxalq münasibətlərin mühüm bir aktoru kimi çox perspektivli təşkilat hesab edilir və mühüm regional inteqrasiya mərkəzi kimi qəbul olunur.

Azərbaycan 1992-ci il 28 noyabr tarixində İqtisadi Əməkdaşlıq Təşkilatı Nazirlər Şurasının İslamabadda keçirilmiş növbədənkənar iclası zamanı təşkilata üzv olmuşdur. Azərbaycanın bu təşkilata üzv olması təşkilata üzv dövlətlər arasında iqtisadiyyatın liberallaşdırılması proseslərində çox fəal şəkildə iştirak edir. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi və regional ticarətin artırılması məqsədilə Azərbaycan 10 müxtəlif saziş imzalanmış, təşkilatın 2006 və 2012-ci illərdə təşkil olunan zirvə toplantıları Bakıda keçirilmiş, hər iki toplantının yekunu olaraq Bakı Bəyannamələri qəbul edilmişdir.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində Pakistanla əməkdaşlığa xüsusi önəm verir. Çünki hər iki dövlətin ümumi maraqları var və bu maraqlardan çıxış edərək həyata keçirilən xarici siyasətdə oxşar məqamlar üstünlük təşkil edir. Bu məqamlara terrorçuluqla mübarizə, yoxxulluq və savadsızlığın azaldılması və aradan qaldırılması, narkotik vasitələrin ticarətinin qarşısının alınması, insan hüquq və azadlıqlarına riayət oolunmasə vəs. aiddir.

İqtisadi Əməkdaşlıq Təşkilatı regional təşkilat olduğundan üzv dövlətlərin problemləri bir-birinə təsir edir, bu baxımdan təşkilata üzv dövlətlərin təhlükəsizlik məsələləri bir qayda olaraq önə çəkilir və bu problemlərin həlli istiqamətində qarşılıqlı dəstək nümayiş etdirilir. Azərbaycanın qalibiyyət qazandığı İkinci Qarabağ Vətən Müharibəsində Pakistan bütün beynəlxalq tribunalardan Azərbaycana öz dəstəyini nümayiş etdirmiş, Pakistan rəhbərliyi Azərbaycanın müharibədəki uğurlarını böyük sevinc sərgiləmişdir. İqtisadi Əməkdaşlıq Təşkilatı zirvə toplantılarında da Pakistan Azərbaycana dəstək olduğunu bildirərək təşkilata üzv dövlətləri də Azərbaycanı bu haqlı mübarizəsində dəstəkləməyə səsləmişdir.

Azərbaycan və Pakistan İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində enerji nəqliyyat layihələrinin inkişaf etdirilməsi, regional inteqrasiyanın sürətləndirilməsi və sosial-iqtisadi inkişafa nail olunması istiqamətində sıx əməkdaşlıq edirlər.

2017-ci il 1 martda Pakistanın paytaxtı İslamabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 13-cü Zirvə görüşü keçirilmişdir. Bu zirvə görüşündə Azərbaycan Respublikasının nümayəndə heyəti iştirak etmişdir və Prezidenti İlham Əliyev bu heyətə rəhbərlik etmişdir. İşgüzar səfər çərçivəsində Azərbaycanla Pakistan arasında ikitərəfli münasibətlərin həm də İqtisadi Əməkdaşlıq Təşkilatı müstəvisində davam etdirilməsinin vacibliyi vurğulanmışdır.

Azərbaycan və Pakistan əməkdaşlığı İqtisadi Əməkdaşlıq Təşkilatının 2008-ci ildə fəaliyyətə başlamış Ticarət və İnkişaf Bankı vasitəsilə inkişaf edir. Əsas məqsədi İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin iqtisadi inkişafını sürətləndirmək və daxili regional ticarətini genişləndirmək üçün maliyyə vəsaitlərinin təşkil olunması və təmin edilməsi olan bu bankın əsas prioritetləri energetika, infrastruktur, telekommunikasiya, istehsal, daşımalar və digər mühüm sahələrində layihələrin maliyyələşdirilməsi və həyata keçirilməsidir. [69]

Azərbaycan və Pakistanın əsas məqsədləri İqtisadi Əməkdaşlıq Təşkilatı regionunda ticarət məhdudiyyətlərini aradan qaldırmaq, digər regionların iqtisadi təcrübəsini və qlobal iqtisadi meylləri nəzərə almaqla region daxili və regionlararası

ticarəti inkişaf etdirmək və genişləndirməkdir. Bunun üçün hər iki dövlətin hökumətləri ticarət sahəsində qeyri-tarif maneələrinin aradan qaldırılması və mövcud tariflərin azaldılması, həmçinin nəqliyyat sahəsində qarşılıqlı əlaqələrin təkmilləşdirilməsi istiqamətində işlər görür.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığa xüsusi önəm verərək təşkilatın daha səmərəli şəkildə fəaliyyət göstərməsində olduqca maraqlıdır. Həmçinin, Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı vasitəsilə digər üzv dövlətlərlə ortaq maraq kəsb edən iqtisadi layihələrin reallaşdırılması və həyata keçirilməsini dəstəkləyir və bir çox sahələrdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı məqsədilə müxtəlif təklif və təşəbbüslər irəli sürür. Azərbaycan həmçinin İqtisadi Əməkdaşlıq Təşkilatı vasitəsilə Pakistanla bir sıra prioritet sahələr, xüsusən də nəqliyyat, enerji, ticarət, investisiya və ətraf mühit sahələrində əməkdaşlıq edir [70]. Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində qarşılıqlı nəqliyyat əlaqələrinin inkişafı və təkmilləşdirilməsini nəzərdə tutan Ticarət Sazişi vasitəsilə təşkilata üzv dövlətlər arasında ticarətin liberallaşdırılmasına nail olmaq üçün Pakistanla sıx əməkdaşlıq edir. Belə ki, Pakistanla yaxın gələcəkdə energetika və nəqliyyat sahələrində də əməkdaşlığın inkişaf etdirilməsi nəzərdə tutulur. Pakistanın Azərbaycandan keçən mövcud və yeni yaranmaqda olan nəqliyyat marşrutlarına qoşulacağı da planlaşdırılan məsələlərdən biridir.

Bundan başqa, regionda yaranmış yeni reallıqdan sonra Azərbaycan, Pakistan və Türkiyə arasında strateji əməkdaşlıq daha da dərinləşir və hər üç ölkənin sıx əməkdaşlıq münasibətləri regionda həm sülhün və əmin-amanlığın qorunmasına, həm də ölkələr arasında əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcək. Hər üç dövlətin regionda sülh və ədalətin hökm sürməsini dəstəkləməsi regionda yaşayan bütün xalqlara rifah vəd edir.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə ticarət, investisiya, nəqliyyat, enerji və ətraf mühit sahələrində sıx əməkdaşlıq edir və ticarət sahəsində tariflərin azaldılması və qeyri-tarif maneələrinin aradan qaldırılması istiqamətində də

işlər görməkdədir ki, məhz bu da Azərbaycanla Pakistan arasında ticarət dövriyyəsinin artırılmasına, hər iki tərəfin qazanc əldə etməsinə və nəticə etibarilə də xalqların həyat standartlarının yaxşılaşdırılmasına xidmət edəcək [71].

Ümumiyyətlə, Azərbaycan daim İslam ölkələrini beynəlxalq arenada birləşməyə, həmrəy olmağa çağırış edir. Beynəlxalq münasibətlərdə münaqişələrin alovlandığı, miqrant axınının getdikcə gücləndiyi zamanda İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində keçirilən sammitlər İslam dünyası üçün böyük əhəmiyyət kəsb edir. Sammitdə iştirak edən dövlətlərin, xüsusən də Pakistan və Azərbaycanın qarşıda duran məsələlərin həlli üçün səylərin gücləndirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi, qarşılıqlı investisiya yatırımlarının artırılması və digər zəruri məsələlər ətrafında müzakirələr aparması İslam həmrəyliyinə böyük təkan verir [72].

### 3.3. Azərbaycan – Türkiyə – Pakistan formatının yaranması və perspektivləri

Pakistan Ermənistan – Azərbaycan münaqişəsinin tənzimlənməsi prosesində birmənalı şəkildə Azərbaycanı müdafiə etmiş və ölkəmizin mənafeyinə uyğun siyasət yürütmüşdür. Azərbaycan da BMT qətnaməsinə əsaslanaraq, 1947-ci ildə Hindistan ordusu tərəfindən Pakistana məxsus Kəşmir əyalətinin bir hissəsinin işğal olunması ilə meydana çıxmış Kəşmir probleminin həllində Pakistana davamlı dəstək nümayiş etdirmişdir. 2021 – ci ilin yanvarında Azərbaycan, Türkiyə və Pakistanın xarici işlər nazirləri Pakistanın paytaxtı İslamabadda görüşərək birgə bəyanat vermişlər və bu bəyanatda xüsusi vurğulanan məsələlrdən biri Cammu və Kəşmirdə insan hüquqlarının pozulması və demoqrafik vəziyyətin dəyişdirilməsinə cəhdlərin edilməsi ilə bağlı narahatlıq olmuşdur. Bu bəyanatda həmçinin qeyd olunmuşdur ki, tərəflər münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında sülh yolu ilə həllinə tərəfdardırlar [37].

II Qarabağ Vətən müharibəsindən sonra Cənubi Qafqaz regionunda yaranan yeni geosiyasi və geoiqtisadi reallıqlar fonunda Azərbaycanın Türkiyə və Pakistanla həm ikitərəfli, həm də üçtərəfli əməkdaşlığı inkişaf xətti ilə irəliləyir. Üç ölkənin parlament sədrlərinin 2021-ci il iyulun 27-də imzaladığı Bakı Bəyannaməsi hər üç dövlət üçün üçtərəfli əməkdaşlığın strateji əməkdaşlıq formasında inkişafı və Azərbaycan – Türkiyə – Pakistan formatının yaranması baxımından olduqca böyük əhəmiyyət kəsb edir.

2021-ci ildə Azərbaycanın Türkiyə və Pakistanla diplomatik əlaqələr qurmasının 30-cu ili tamam oldu. Bu 30 ildə Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli münasibətlərinin yüksələn xətlə inkişaf etməsi və strateji tərəfdaşlıq səviyyəsinə çatması yeni üçtərəfli formatın yaranmasına zəmin yaratmışdır. Azərbaycan, Türkiyə və Pakistanın müdafiə və xarici işlər nazirlikləri arasında səmərəli münasibətlər qurulmuş, 30 noyabr 2017-ci ildə üç ölkənin xarici işlər nazirlərinin Bakıda keçirilmiş ilk görüşü zamanı siyasi, iqtisadi, təhlükəsizlik, elm və texnologiya, humanitar sahələrdə əməkdaşlığın dərinləşdirilməsi məqsədi ortaya qoyulmuşdur.

Xarici İşlər nazirlərinin üçtərəfli formatda ikinci görüşü 13 yanvar 2021-ci ildə İslamabadda keçirilmişdir. Azərbaycan, Türkiyə və Pakistan yerləşdikləri regionlarda sülh və sabitliyin təmin olunması, qlobal təhdidlərə – terrorçuluq, islamafobiya, müsəlman azlıqların təqibi, kibercinayətkarlıq və hibrid müharibəyə qarşı mübarizə sahəsində səylərini gücləndirəcəklərini bəyan etmişlər. Bu görüşdə, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası və reabilitasiyası, eləcə də, regional konsensusun əldə olunması prosesinə Türkiyə və Pakistanın birmənalı şəkildə siyasi dəstəyi ifadə olunmuşdur. Növbəti görüşün 2022-ci ildə Türkiyədə keçirilməsi planlaşdırılmışdır.

İkinci Qarabağ Vətən müharibəsi dövründə Türkiyə və Pakistan Azərbaycanın haqlı mövqeyini müdafiə etmiş, Ermənistanın işğalçılıq siyasətini pisləyən bəyanatlar vermişdir ki, bu da Azərbaycan tərəfindən yüksək dəyərləndirilir. Türkiyə və Pakistan

Ermənistanı rəsmən tanımamaqla və onunla diplomatik əlaqələr qurmamaqla Azərbaycanla münasibətlərə verdikləri dəyəri sübut etmişlər.

İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Türkiyə və Pakistan müsəlman dünyasında böyük nüfuza malikdir. Bu ölkələrlə üçtərəfli əməkdaşlıq formatının yaradılması Azərbaycana imkan verəcək ki, ölkəmiz daha çox müsəlman dövlətinin dəstəyini qazansın. Üçtərəfli əməkdaşlıq formatının yaradılması Azərbaycan, Türkiyə və Pakistanın beynəlxlaq təşkilatlar çərçivəsində bir-birinə fəal şəkildə siyasi dəstək verməsinə, mühüm və qarşılıqlı maraq doğuran məsələlərdə vahid mövqedən çıxış etməsinə zəmin formalaşdırmışdır. Həmçinin, Türkiyə və Pakistanın nüfuzlu orduya, inkişaf etmiş müdafiə sənayesi potensialına malik olması Azərbaycanın bu strateji tərəfdaş ölkələrlə hərbi-texniki əməkdaşlığına böyük töhvə verə bilər.

Azərbaycan da hər zaman Türkiyə və Pakistanla əməkdaşlığa və müttəfiqliyə böyük əhəmiyyət vermiş, bu strateji tərəfdaş ölkələrin Kəşmir və Kipr problemləri ilə bağlı hərtərəfli dəstəyini daim ifadə etmişdir. Pakistanın öz növbəsində Türkiyə ilə strateji müttəfiqlik münasibətlərinin mövcudluğu üçtərəfli formatda siyasi-hərbi əməkdaşlıq üçün olduqca geniş imkanlar yaradır.

Azərbaycan, Türkiyə və Pakistanın strateji müttəfiqlik münasibətləri diplomatik sferada maraqların uzlaşdırılmasına şərait yaradır, onlar öz fəaliyyətlərini koordinasiya edərək beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə fəal siyasi dəstək nümayiş etdirirlər. Bundan başqa, Türkiyə və Pakistan şirkətlərinin ölkəmizin işğaldan azad edilmiş ərazilərində böyük abadlıq və quruculuq işlərində yaxından və ürəklə iştirakı ölkələrimiz arasında iqtisadi münasibətlərin inkişafına böyük təkan verə bilər.

Azərbaycan ilə Türkiyə arasında ikitərəfli Şuşa Bəyannaməsinin imzalanması, Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin Bakı Bəyannaməsini imzalaması və ardınca Şuşaya səfər etməsi hər üç ölkənin ərazi bötüvlüyü və

suverenliyinə təhlükə yaradan təhdidlərə qarşı birgə mübarizə aparmaq niyyətini ortaya çıxarır [73].

27 iyul 2021-ci ildə Azərbaycan, Türkiyə və Pakistan parlament sədrləri tərəfindən imzalanmış "Bakı Bəyannaməsi" üç ölkənin strateji tərəfdaşlığında yeni mərhələnin başlanğıcı olmaqla yanaşı, üçtərəfli formatın yaradılması üçün də mühüm bir addım sayıla bilər. Belə ki, bu Bəyannamədə qeyd olunan üç ölkə arasında ticarət, energetika, nəqliyyat, təhsil, mədəniyyət, xalqlararası təmas, sosial münasibətlər, turizm, informasiya və kommunikasiya texnologiyası sahəsində ikitərəfli və üçtərəfli əməkdaşlıq, "hibrid müharibələr və İslamafobiyaya meyilli ölkələrə" görə yaranan təhdidlərə qarşı birgə mübarizə, qarşılıqlı maraq kəsb edən regional və qlobal əhəmiyyətli məsələlərdə yaxından və sıx şəkildə fəaliyyət göstərmək haqqında əməkdaşlıq kimi məsələlər, o cümlədən 3 ölkənin kiber hücumlar, xaricdən dəstəklənən terror hücumları, dezinformasiya kampaniyalarına qarşı, həmçinin bir sıra digər sahələr üzrə əməkdaşlığı inkişaf etdirməyə və genişləndirməyə razılaşması regionda yeni üçtərəli formatın və regional güc mərkəzinin rəsmi əsasını qoymuş oldu.

"Bakı Bəyannaməsi"nin yerinə yetirilməsi çərçivəsində ilk dəfə olaraq Bakıda Azərbaycan, Pakistan və Türkiyənin xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə “Üç Qardaş-2021” beynəlxalq hərbi təlimi keçirildi. 12-20 sentyabr 2021-ci il tarixində keçirilən birgə təlimin əsas məqsədi iştirakçı ölkələrin xüsusi təyinatlı qüvvələrinin qarşılıqlı fəaliyyətinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi, təcrübə mübadiləsinin aparılması, sülh və müharibə dövründə hərbi əməliyyatlara hazırlanması idi. Bu təlim Azərbaycan, Pakistan və Türkiyənin xüsusi təyinatlı qüvvələrinin keçirdikləri ilk təlim kimi tarixə düşməklə yanaşı, Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında daha da ön yerləri tutmasında və Azərbaycan-Türkiyə-Pakistan formatınınmöhkəmlənməsində mühüm rol oynaya bilər. Azərbaycan, Türkiyə və Pakistan arasında strateji əməkdaşlığın və üçtərəfli formatın möhkəmlənməsi isə regionun inkişafına, sabitliyinə və təhlükəsizliyinə xidmət edəcək [74].

Beləliklə, Pakistanın Azərbaycan və Türkiyənin strateji müttəfiqliyinə qoşulması yeni məna kəsb etməkdədir. Azərbaycan və Türkiyəarasında tarixdən gələn birlik, müttəfiqlik və qardaşlıq münasibətləri mövcuddur. Bu münasibətlər Pakistanın iştirakı ilə daha da möhkəmlənərək yeni regional güc mərkəzinə çevriləcəkdir.

Üçtərəfli formatın qurulması və üç dövlət arasında strateji müttəfiqlik münasibətlərinin inkişaf etdirilməsi regionun siyasi xəritəsində ciddi dəyişikliklər etmək imkanına malik olduğu üçün bir sıra dövlətlərin diqqətini cəlb edir. Ona görə də tərəflər əməkdaşlıq əlaqələrini və müttəfiqlik münasibətlərini ehtiyatla və qətiyyətlə gerçəkləşdirirlər. Üçtərəfli formatın inkişafında növbəti addım üç dövlətin hərbi-siyasi ittifaq müqaviləsinin imzalanması ola bilər ki, bu müqavilə ilə Azərbaycan, Türkiyə və Pakistan arasında hərbi-siyasi əməkdaşlığı özündə ehtiva edən təşkilat yaradıla bilər. Bu təşkilat həm hərbi sahədə müttəfiqlik münasibətlərinin qurulmasına, həm də siyasi məsələlərlə bağlı qərarların qəbul edilməsinə töhvə verə bilər. Azərbaycan, Türkiyə və Pakistan ayrı-ayrılıqda İslam dünyasında aparıcı rola malikdir. Onların öz gücünü birləşdirməsi və üçtərəfli formatın inkişaf etdirilməsi gələcəkdə bu birliyə strateji müttəfiqlik münasibətlərində olan ölkələrin qoşulmasına və beləliklə, regionda yeni geosiyasi güc mərkəzinin yaranmasına səbəb ola bilər [75].

Azərbaycan, Pakistan və Türkiyəni bir-birinə yaxınlaşdıran əsas səbəblərdən biri də hər üç dövlətin beynəlxalq tribunalarda milli maraqlarla bağlı bir-birinə göstərdiyi davamlı dəstəkdir. Belə ki, Pakistanın Kəşmir, Türkiyənin Kipr, Azərbaycanın isə artıq öz həllini tapmış Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı müxtəlif beynəlxalq forumlarda qarşılıqlı dəstək nümayiş olunub. Üç ölkənin xarici işlər nazirlərinin İslamabadda keçirilən görüşündə imzalanan Birgə bəyannamədə Hindistanın “Cammu və Kəşmirin demoqrafik strukturunu dəyişdirmək” cəhdlərindən narahatlıq ifadə edilib və “Kipr problemi”nin həllinə çağırılıb [76].

Siyasi əməkdaşlıq üçün yeni üçtərəfli formatın yaradılmasının əsası 2017-ci ildə üç dövlətin xarici işlər nazirləri-Elmar Məmmədyarov (Azərbaycan), Mövlud Çavuşoğlu (Türkiyə) və Xavaca Məhəmməd Asif (Pakistan) Bakıda ilk üçtərəfli

görüşün keçirməsi ilə qoyulmuşdur. Həmin vaxt imzalanmış bəyannamədə bu dövlətlərin üçtərəfli əməkdaşlığı inkişaf etdirmək üçün yollar araşdırmaqda əzmkarlığı vurğulanmış və mütəmadi olaraq üçtərəfli görüşlərin keçirməsinə razılığı qeyd olunmuşdur. 27 iyul 2021-ci ildə parlament sədrlərinin imzaladığı bəyanatda üç dövlətin parlamentləri arasında davamlı şəkildə üçtərəfli əməkdaşlığın qurulması vurğulanmış və bildirilmişdir ki, bu format hər hansı başqa dövlətə və ya dövlətlər qrupuna qarşı yönəlmiş ittifaq deyil, sülh platformasıdır.

Üçtərəfli formatın yaradılması Azərbaycan-Pakistan və Türkiyə-Pakistan iqtisadi əlaqələrinin inkişafı üçün olduqca vacibdir. Azərbaycan və Türkiyənin ikitərəfli iqtisadi əlaqələri hərbi və siyasi əlaqələr qədər güclüdür, amma Azərbaycan-Pakistan və Türkiyə-Pakistan ikitərəfli əməkdaşlığı hərbi və siyasi sahələrdə inkişaf etsə də, iqtisadi əməkdaşlıq hələ də arzuolunan səviyyədə deyil. Pakistanın Azərbaycanla illik ticarət dövriyyəsi 15 milyon dollardan az, Türkiyə ilə isə təxminən 800 milyon dollar təşkil edir ki, bu rəqəm onların hədəf rəqəmini əks etdirmir.

Üç ölkə arasında müdafiə sahəsində əməkdaşlığın hərbi texnologiyaların istehsalı üzrə əməkdaşlığa da keçməsi potensialı var, çünki bu dövlətlər artıq ikitərəfli qaydada buna təşəbbüs ediblər. Belə ki, Pakistan və Türkiyə artıq müdafiə sahəsində əsaslı formada əməkdaşlıq edirlər. Türkiyə Pakistan Hərbi Dəniz Qüvvələri üçün "MİLGEM" sinifli döyüş gəmiləri inşa edir, Pakistan isə Türkiyəyə 52 "Mashahk" təlim təyyarəsi ixrac etmişdir.

Azərbaycan strateji tərəfdaşlarla üçtərəfli formatda əməkdaçlıq sahəsində kifayət qədər təcrübəyə malikdir. Belə ki, üçtərəfli formatda əməkdaşlıq Azərbaycanın son illərdə tez-tez tətbiq etdiyi strategiyadır. Artıq yaradılmış Azərbaycan-Türkiyə-Gürcüstan və Azərbaycan-Türkiyə-Türkmənistan formatlarına əlavə olaraq, Azərbaycan-Türkiyə-İsrail və Azərbaycan-Türkiyə-Ukrayna formatlarının təşviqində maraqlıdır.

Bu cür üçtərəfli ittifaqların yaradılması Azərbaycana geosiyasi proseslərə çevik və vaxtında reaksiya verməyə imkan verir. Türkiyənin Azərbaycanın iştirak etdiyi bu

formatların hər birində iştirakı son Şuşa Bəyannaməsi ilə bir daha təsdiqlədi ki, Azərbaycan ilə Türkiyə arasında ikitərəfli strateji müttəfiqlik münasibətləri mövcuddur [77].

Sürətlə dəyişən beynəlxalq şəraitdə "Üç Qardaş 2021" təliminin keçirilməsi Azərbaycan, Türkiyə və Pakistan arasında hərbi, taktiki, strateji və təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşməsinə xidmət etmiş, eyni zamanda Ermənistan, Yunanıstan və Hindistanda narahatlığa səbəb olmuşdur. Pakistanın nüvə silahına malik dövlət kimi mühüm aktor olması, Türkiyənin güclü orduya və inkişaf etmiş müdafiə sənayesinə malik olması, Azərbaycanın müdafiə qabiliyyətinigücləndirməsi hər üç dövlətə mümkün hücum ehtimalına qarşı çəkindirici təsir yaradan məsələlərdəndir. Təlimlərin Azərbaycanda keçirilməsinin mühüm perspektivi ondan ibarətdir ki, bu təlimlər Ermənistana, vədlərinə əməl etməyən region və dünya ölkələrinəmesaj vermək baxımından çox vacibdir. [78] İnkişaf etməkdə olan regional güc ittifaqının - Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli formatın ortaq hərbi təlim təşkil etməsi çoxtərəfli əlaqələr baxımından olduqca vacibdir. Çünki, Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli formatın yaranması regionda sülh, sabitlik və inkişaf baxımından böyük əhəmiyyət kəsb edir [79].

Digər tərəfdən Türkiyə, Azərbaycan və Pakistan üçtərəfli formatın ilk tədbiri hesab edilən "Üç Qardaş 2021" təlimi bir sıra ölkələrdə narahatlıqla qarşılanmışdır. Amerika Erməni Milli Komitəsi (Armenian National Committee of America, ANCA) və Hind lobbisi bu təlimi "regional təhdid və təhlükə" kimi dəyərləndirərək qara propaqanda aparmışdır. Əsasən sosial media üzərindən aparılan propaqandada təlim iştirakçısı olan Pakistanın hindlilərə, Türkiyənin isə ermənilərə qarşı soyqırım törətdiyinə dair yalan informasiyalar yer almağa başlamışdır [80]. Təlimlərdən narazı olan digər ölkə isə Yunanıstan idi. Yunan mediasında "Türkiyə-Azərbaycan hərbi ittifaqı Yunanıstan üçün təhlükəli bir formada dərinləşir", "Türkiyə ilə hərbi qarşıdurma olacağı təqdirdə Yunanıstan Azərbaycanı da potensial bir düşmən olaraq görməlidir" kimifikirlərin yer aldığı xəbərlər yayılmışdır [81]. Rəqib və düşmən

dövlətlərdən belə bir reaksiyanın gəlməsi isə normaldır, çünki formalaşmaqda olan regional güc mərkəzi özündə hərbi-siyasi baxımdan öz regionunun nüfuzlu dövlətlərini birləşdirir [82].

"Üç Qardaş 2021" təlimi regional və beynəlxalq aktorların bütün diqqətini Cənubi Qafqaz regionuna çəkmişdir. Belə ki, II Qarabağ Vətən müharibəsindən qalib çıxan Azərbaycan Türkiyə və Pakistandan çox böyük dəstək gördü və tarixən formalaşmış dostluq və strateji müttəfiqlik münasibətləri öz möhkəmliyini bu müharibə zamanı bird aha ortaya qoymuş oldu, həmçinin ikitərəfli münasibətlər artıq üçtərəfli müstəviyə keçdi.

Üçtərəfli formatın əsas məqsədi təkcə Azərbaycanı öz haqlı müharibəsində dəstəkləmək deyil, həmçinin regional problemlərin qarşısında daha möhkəm bir əməkdaşlığı ortaya qoymaqdır. Belə ki, Cənubi Qafqazdan başqa, Yaxın Şərq, Orta Asiya və Cənubi Asiya regionlarında son illər çox mühüm geosiyasi proseslər baş verir. ABŞ əsgərlərinin Əfqanıstandan çıxarılması və Taliban hərəkatının iqtidara qayıtması, regional problemlərin gətirdiyi nizamsızlıq, terrorizmlə mübariz, qaçqın probleminin kəskinləşməsi, enerji siyasəti, regionlarda söz sahibi olmaq üçün aparılan siyasi mübarizə regional güc mərkəzinin formalaşmasını labüd etmişdir. Pakistan ABŞ və Çin arasında başlanması ehtimal edilən müharibədən əvvəl Avrasiyada qüvvə balansını yenidən qurmağa çalışır. ABŞ, Böyük Britaniya və Avstraliya arasında qurulmuş AUKUS formatı bu fikri təsdiq edir. Bu formata Yaponiya, Sinqapur, və Cənubi Çin dənizi ətrafında yerləşən Filippin, Vyetnam, Bruney, İndoneziya və Malayziyanın qoşulması ilə Çinə qarşı böyük bir regional güc formalaşa bilər. Bu münaqişənin baş verməsi uzaq gələcəkdə görünsə də yaxın gələcəkdə Yaxın Şərq və Orta Asiya regionunda münaqişələrin baş verməsi ehtimal olunur.

Rusiya əsas diqqətini Sibirdə mövcud faydalı qazıntıların aşkarlanması və yaxın çevrəsindəki regionlarda öz nüfuzunu qoruyub saxlanması ilə məşğul olsa da Türkiyəni daim diqqət mərkəzində saxlayır və atdığı addımları diqqətlə müşahidə

edir. Rusiya Türkiyənin Mərkəzi Asiya regionunun türk dövlətləri ilə iqtisadi və siyasi münasibətlərinin inkişafından narahatlıq keçirir.

Məhz Avrasiyada baş verən güc tarazlığındakı dəyişikliklər Azərbaycan, Türkiyə və Pakistanı daha da yaxınlaşdırmışdır. Türkiyə və Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə Rusiyaya qarşı bir balans qurması çox mühimdir. Pakistan üçün də Hindistana qarşı balans yaratmaq çox vacibdir. Yəni, Avrasiya regionunda güc balanşı yaradılan zaman Azərbaycan, Türkiyə və Pakistanın strateji tərəfdaşlığı dərinləşdirməsi və üçtərəfli formatı inkişaf etdirməsi yuxarıda qeyd olunan vacib məsələlərin həlli üçün əsas addım sayıla bilər.

NATO üzvü olan Türkiyə, nüvə dövləti olan Pakistan və getdikcə güclənən dövlət olan Azərbaycanın silahlı qüvvələrinin birgə hərbi təlim keçirməsi silahların təkmilləşdirilməsi, ortaq mövqeyin ortaya qoyulması, Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin edilməsi üçün də olduqca vacibdir. Belə ki, üç dövlətin silahlı qüvvələri arasında birlik nümayiş olunaraq beynəlxalq səviyyədə müdafiə və döyüş qabiliyyəti nümayiş etdirilmişdir [83].

Azərbaycan, Türkiyə və Pakistanın üçtərəfli formatda əməkdaşlığı dron texnologiyasının inkişaf etdirilməsi üçün əsas vasitələrdən biridir. Çünki elektron müharibələrdə əməkdaşlıq üç dövlətin ordularının döyüş qabiliyyətinin nə dərəcədə yüksək olduğunu göstərə bilər. Üç dövlət arasında strateji tərəfdaşlığın inkişafı üçün tələb oluna biləcək maliyyə vəsaitlərini qarşılamaq məqsədilə ortaq inkişaf bankının yaradılması və qarşılıqlı investisiya fəaliyyətinin sürətləndirilməsi məqsədəuyğun ola bilər. Bununla Azər baycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işləri aparıla bilər. Ortaq enerji bankının yaradılması üç dövlət arasında enerji sahəsində əməkdaşlığı, ortaq turizm şirkətinin qurulması isə üç dövlət arasında turizmin inkişafına təkan verə bilər. Azərbaycan, Türkiyə və Pakistan arasında üçtərəfli formatın inkişafı ilə üç dövlət arasında iqtisadi, investisiya yatırımı, elm, texnologiya, mədəniyyət, əkinçilik, tekstil və s. sahələrdə üçtərəfli əməkdaşlıq sürətlə irəliyə gedə bilər. Cənubi Qafqazda yeni təhlükəsizlik məsələlərinin ortaya çıxması,

iqtisadi inkişaf və əməkdaşlıq, siyasi, sosial və mədəni əməkdaşlıq, güclü hərbi əlaqələr, iqtisadi və siyasi inteqrasiya kimi sahələr üçtərəfli strateji əməkdaşlıq üçün olduqca böyük əhəmiyyət kəsb edir. Türkiyə-Naxçıvan koridorunun tamamlanması, Pakistan, Türkiyə və İran arasında yük daşınması da Azərbaycan, Türkiyə və Pakistan arasında yaxınlaşmaq üçün mühüm məqam hesab edilir [84].

Beləliklə, bugün Pakistanı tam əminliklə Azərbaycanın Türkiyədən sonra ikinci əsas strateji müttəfiqi hesab etmək olar. İki ölkə arasındakı münasibətlər həm ikitərəfli, həm də çoxtərəfli əlaqələr çərçivəsində çox intensivdir. Belə ki, hər iki dövlət BMT, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq və regional qurumlarda eyni mövqedən çıxış edir, Kəşmir probleminin beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdar olduqlarını bildirirlər. Pakistan Türkiyə ilə yanaşı, indiyədək işğalçı Ermənistanla diplomatik münasibətlər qurmayan və ən müxtəlif tribunalardan işğalçı ordunun Azərbaycan ərazilərindən çıxarılmasını tələb etmiş ikinci dövlətdir. Öz növbəsində, Azərbaycan da Kəşmir problemində Pakistanın mövqeyini dəstəkləyir və TRASEKA layihəsində müşahidəçi kimi iştirak edən Pakistanın gələcəkdə bu layihəyə tam qoşulması üçün ona hərtərəfli dəstək verir [5, s.311-319].

# NƏTİCƏ

Azərbaycan - Pakistan münasibətlərinin təhlili göstərir ki, ikitərəfli münasibətlərin inkişaf etdirilməsi hər iki dövlətin milli maraqlarına xidmət edir. Geosiyasi, geostrateji və geoiqtisadi baxımdan mürəkkəb məkanda yerləşən Azərbaycan yürütdüyü xarici siyasətdə öz milli maraqlarını dünya dövlətlərininAzərbaycandakı maraqları ilə uzlaşdırır. Pakistan nüvə silahına malik olmaqla Asiya qitəsindəvə müsəlman dövlətləri arasında mühüm aktorlardan birinə çevrilmiş və öz hərbi - geostrateji mövqeyini gücləndirmişdir.

Azərbaycan ilə Pakistan arasında yaradılmış strateji tərəfdaşlıq münasibətləri özünü Pakistanın 44 gün davam edən İkinci Qarabağ Vətən müharibəsi zamanı Azərbaycana göstərdiyi mənəvi dəstəklə bir daha sübut olunmuşdur. 14 yanvar 2021-ci ildə Azərbaycan, Türkiyə və Pakistan Xarici İşlər nazirlərinin Pakistanın paytaxtı İslamabad şəhərində keçirilmiş üçtərəfli görüşünün keçirilməsi, 2021 - ci il iyulun 27-də Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin ilk üçtərəfli görüşünün yekun sənədi olaraq “Bakı bəyannaməsi”nin imzalanması üç dövlətin regional və beynəlxalq səviyyədə əməkdaşlığınıninkişafı üçün geniş imkanlar açmışdır. Bu sənəd yaxın gələcəkdə

Türkiyə, Azərbaycan və Pakistan ittifaqının dünyanın geosiyasi arenasına hərbi ittifaq şəklində çıxmasını, regionda yeni bir güc mərkəzinin yaranacağını, üç dövlət arasında olan strateji müttəfiqlik münasibətlərini daha da güclənəcəyini proqnozlaşdırmağa imkan verir.

Bu gün Pakistanı tam əminliklə Azərbaycanın Türkiyədən sonra dünyadakı ikinci əsas strateji müttəfiqi hesab etmək olar. Azərbaycan ilə Pakistan siyasi, hərbi, iqtisadi, mədəni və humanitar sahələrdə sıx əməkdaşlıq edir və bu münasibətlərin gələcək inkişafı böyük perspektiv vəd edir. Azərbaycan hərbi sənayesi yüksək səviyyədə inkişaf etmiş 10 qabaqcıl ölkədən biri olan Pakistan ilə hərbi sahədə əməkdaşlığı gün-gündən genişləndirir. Hər iki dövlət iqtisadi və ticarət əlaqələrini daha çox inkişaf etdirmək istiqamətində işlər aparırlar, bunun üçün qarşılıqlı səfərlər həyata keçirilir, biznes forumlar təşkil olunur. İkitərəfli ticarəti inkişaf etdirmək üçün Azərbaycan kənd təsərrüfatı məhsulları, xüsusən də düyü, pambıq məhsulları, hazır geyim və toxuculuq məhsullarını, mühəndislik və istehlak malları, əczaçılıq məhsulları, idman malları, cərrahi alətlər kimi məhsulları Pakistandan idxal edə, neft və qaz kəşfiyyatı sektorunda malik olduğu geniş təcrübəsini Pakistanla bölüşə, bu ölkənin enerji sektoruna investisiya yatıra bilər.

Humanitar sahədə ikitərəfli münasibətlərin inkişafında Heydər Əliyev Fondu xüsusi rol oynayır. Belə ki Fond Pakistanda müntəzəm olaraq humanitar layihələr həyata keçirir: zəlzələdən zərər çəkmiş məktəblərin təmir olunması, tibb müəssisələrinin müvafiq avadanlıqlarla təchiz edilməsi vəs. Azərbaycan və Pakistan üzv olduqları beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış edirlər. Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan müsəlman dövlətlərinin təmsil olunduğu beynəlxalq təşkilatlarla çoxtərəfli əlaqələrin qurulmasına böyük əhəmiyyət verir. Pakistan ilə Azərbaycanın sıx əməkdaşlıq etdiyi və bir – birinə qarşılıqlı dəstək göstərdiyi əsas təşkilatlar İslam Əməkdaşlıq Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatıdır. Qeyd olunan təşkilatlar çərçivəsində terrorçuluqla mübarizə, yoxsulluq və savadsızlığın azaldılması və aradan qaldırılması, narkotik vasitələrin ticarətinin

qarşısının alınması, insan hüquq və azadlıqlarına riayət olunması vəs. problemlərlə bağlı dövlət mövqeləri ortaya qoyulur.

Azərbaycanla Türkiyə arasında illərdən bəri mövcud olan strateji müttəfiqliyə Pakistanın qoşulması yeni regional güc mərkəzinin yaranmasından xəbər verir. Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli formatın qurulması və üç dövlət arasında strateji müttəfiqlik münasibətlərinin inkişaf etdirilməsi üç dövlətin hərbi-siyasi ittifaq müqaviləsinin imzalanması, bu hərbi-siyasi əməkdaşlığı özündə ehtiva edən təşkilatın yaradılması, siyasi məsələlərlə bağlı ortaq qərarların qəbul edilməsi, gələcəkdə bu birliyə strateji müttəfiqlik münasibətlərində olan ölkələrin qoşulması və beləliklə, regionda yeni geosiyasi güc mərkəzinin yaranmasına səbəb ola bilər.

2021 - ci il iyul ayının 27-də Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin birinci üçtərəfli görüşü keçirilmiş və yekun sənəd olaraq "Bakı bəyannaməsi" imzalanmışdır. Belə bir sənədin imzalanması ilə yaxın gələcəkdə Türkiyə, Azərbaycan və Pakistan ittifaqının Rusiya ilə qarşılıqlı əlaqələrini, həmçinin Ankara - Bakı - İslamabad üçlüyünündünyanın geosiyasi arenasına hərbi ittifaq şəklində çıxmasını proqnozlaşdırmaq olar. İmzalanmış sənəd hər üç dövlətin tarixində yeni bir dövrün başlanğıcı olmaqla yanaşı, regionda yeni bir güc mərkəzinin yaranacağını deməyə imkan verir. Hesab edilir ki, "Bakı Bəyannaməsi" Türkiyə, Azərbaycan və Pakistan arasında mövcud olan strateji müttəfiqlik və tərəfdaşlıq münasibətlərini daha da gücləndirəcəkdir. "Bakı Bəyannaməsi" və onun verdiyi imkanlar, gələcək üçün formalaşdırdığı perspektivlər regional ölçüdə yeni və ciddi bir güc mərkəzinin yaradılması istiqamətində atılmış mühüm addımlardan biri sayıla bilər [27].

Hər üç dövlətin bir-birini beynəlxalq platformalarda dəstəkləməsi, müxtəlif dövlət strukturları arasında olan əlaqələr gələcəkdəbu dövlətlərin siyasi, iqtisadi, hərbi, mədəni vəs. istiqamətdə əməkdaşlığının daha da güclənməsinə yol açmaqdadır.

Üç dövlət arasında yaranmış sıx əlaqələr İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə yaranmış problemlərin həllində, Zəngəzur dəhlizinin istifadəyə

verilməsində, Türkiyənin antiterror mübarizəsində, Kipr və Kəşmir problemlərinin həllində, regionda və dünyada ciddi problemlərdən sayılan Əfqanıstan, Gürcüstan, Ukrayna, İraq, İran kimi problemlərin həllində çox mühüm rol oynaya bilər. BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq edən hər üç dövlət hərbi, təhlükəsizlik, terrorla mübarizə sahəsində münasibətləri genişləndirmək və bu istiqamətdə qanunvericilik bazasını zənginləşdirmək potensialına malikdir. Bu potensialın reallaşdırılması ilə tərəflər regional və beynəlxalq təhlükəsizliyə çox ciddi töhfələr verə bilərlər.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində

1. Azərbaycan beynəlxalq aləmdə, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, 84 səh.

2. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2016, 7 səh.

3. Balayev X. Azərbaycan - Pakistan strateji tərəfdaşlığı, XƏZƏR XƏBƏR, №369, 2018, səh. 64-65

4. Çingiz İ. Beynəlxalq münasibətlər tarixi, Müasir dövr, II hissə, Bakı, 2021, 527 səh.

5. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, 2005, 751 səh.

6. Həsənov Ə. Azərbaycanın geosiyasəti, Bakı, 2015, 390 səh.

7. Heydər Əliyev və Şərq, Altı cilddə, İKT dövlətləri, Bakı, 2005, 357 səh.

8. İsabəyli A. Pakistan müasir beynəlxalq münasibətlər sistemində, Bakı, 2005, 152 səh.

9. İslam Əməkdaşliq Təşkilati (İƏT), İslam Konfransı Təşkilatı (İKT), “Yeni Azərbaycan” qəzeti, 2014, № 109, 8 səh.

10. Məmmədov N. Reallıqlar və gələcəyə baxış, Bakı, 2013, 264 səh.

**Türk dilində**

11. Alizada N. Azerbaycan-Pakistan Askeri İlişkileri, Ankara, 2021

**İngilis dilində**

12. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Pakistan İslam Respublikasına rəsmi səfəri (9-11 aprel 1996-cı il) // https://lib.aliyevheritage.org/az/41111492.html

13. Bangash A. H. Azerbaijan and Pakistan: Historical relations and perspectives, The Frontier Post, 2018

14. Details of signed MoUs/Agreements between Azerbaijan and Pakistan as on 24.04.2020/ Ministry of Foreign Affairs of the Islamic Republic of Pakistan.

15. Hussain S. Pakistan and Azerbaijan: Deepening a Mutually Beneficial Relationship, The Diplomat, 2020.

16. Khan I. and Syed K. H. Pakistan Relations with Azerbaijan in 21st Century, Pakistan Social Sciences Review March 2021, Vol. 5, No. I, p. https://president.az/az/articles/view/145217-679.

17. Makili-Aliyev K. and Abbas K. Pakistan-Azerbaijan Economic and Defence Cooperation, IPRI Journal XVI, No.1, 2016, p.42-58.

18. "Üç Qardaş - 2021" təliminin əhəmiyyəti ilə bağlı türkiyəli generaldan açıqlama // https://sonxeber.az/232163/uc-qardas-2021-teliminin-ehemiyyeti-ile-bagli-turkiyeli-generaldan-aciqlama

19. 2020-ci il üzrə Azərbaycanın ölkələr və ölkə qrupları üzrə xarici ticarətinə dair məlumatlar (min ABŞ dolları) // https://economy.gov.az//uploads/fm/files/diger/Xarici%20ticarət%20_2020.pdf

20. Azerbaijan Boosts Trilateral Cooperation With Pakistan and Turkey // https://jamestown.org/program/azerbaijan-boosts-trilateral-cooperation-with-pakistan-and-turkey/

21. Azerbaijan can serve as “transit and logistic hubs” to its region and beyond // https://en.azvision.az/news/%2077220/-azerbaijan-can-serve-%20as-transit-and-logistic-hubs-%20to-its-region-and-beyond-.html

22. Azerbaijan keen to promote trade with Pakistan // https://www.thenews.com.pk/print/771946-azerbaijan-keen-to-promote-trade-with-pakistan

23. Azerbaijan, Pakistan Discuss Expanding Bilateral Military Ties // https://caspiannews.com/news-detail/azerbaijan-pakistan-discuss-expanding-bilateral-military-ties-2021-6-23-0/

24. Azerbaijan-Pakistan: the road from the past to the future // https://xalqqazeti.com/mobile/az/news/80973

25. Azərbaycan - İslam Əməkdaşlıq Təşkilatı (İƏT) münasibətləri // https://mfa.gov.az/az/category/beynelxalq-teskilatlar/azerbaycan-islam-emekdasliq-teskilati-iet-munasibetleri

26. Azərbaycan - İslam Konfransı Təşkilatı münasibətləri // https://lib.aliyevheritage.org/az/6958380.html

27. Azərbaycan – Pakistan əlaqələri // https://www.elibrary.az/docs/qazet/qzt2018_5482.htm

28. Azərbaycan - Pakistan münasibətləri // https://lib.aliyev-heritage.org/az/3966579.html

29. Azərbaycan ilə Pakistanı strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri birləşdirir // https://www.azerbaycan24.com/azerbaycan-ile-pakistani-strateji-terefdasliq-ve-muttefiqlik-munasibetleri-birlesdirir-prezident/

30. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/trade/?lang=en

31. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Pakistan İslam Respublikasına rəsmi səfəri (9-11 aprel 1996-cı il) // https://lib.aliyevheritage.org/az/41111492.html

32. Azərbaycan Respublikasının xarici siyasətinin əsas prinsipləri və prioritetləri // http://www.anl.az/down/meqale/xalqqazeti/2015/may/435735.htm

33. Azərbaycan və Pakistan arasında ikitərəfli hərbi əməkdaşlıq protokolu imzalanıb // https://mod.gov.az/az/news/azerbaycan-ve-pakistan-arasinda-ikiterefli-herbi-emekdasliq-protokolu-imzalanib-12615.html

34. Azərbaycan, Türkiyə və Pakistan - strateji müttəfiqlikdə yeni mərhələ // https://a-r.az/az/article/18152

35. Azərbaycan, Türkiyə və Pakistan yeni güc mərkəzi yaradır // https://www.bizimyol.info/az/news/354212.html

36. Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Pakistanın "Hilal-e-Pakistan" ordeni təqdim olunub // https://president.az/az/articles/view/14521

37. Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Pakistanın "Hilal-e-Pakistan" ordeni təqdim olunub // https://president.az/az/articles/view/14521

38. Azərbaycanın etibarlı dostu, səmimi müttəfiqi // http://anl.az/down/meqale/azerbaycan/2021/fevral/735318.htm

39. Azərbaycanla Pakistan arasındakı strateji müttəfiqlik daha da möhkəmləndiriləcək // https://sia.az/az/news/politics/877943.html

40. Azərbaycan-Pakistan münasibətləri // https://525.az/news/164638-azerbaycan-pakistan-munasibetleri

41. Azərbaycan-Pakistan müttəfiqliyi - hərbi gücümüzə güc qatan dostluq // https://musavat.com/news/azerbaycan-pakistan-muttefiqliyi-herbi-gucumuze-guc-qatan-dostluq_419907.html

42. Bakıda "Qafqaz Qartalı - 2019" birgə təliminin açılış mərasimi olub // https://mod.gov.az/az/news/bakida-qafqaz-qartali-2019-birge-teliminin-acilis-merasimi-olub-video-28611.html

43. Beynəlxalq münasibətlərdə siyasi realism // https://kafkazh.com/beynelxalq-munasibetlerde-siyasi-realizm/

44. Countries in the world by population (2022) // https://www.worldometers.info/world-population/population-by-country

45. Güney Kafkasya ve Yeni Güvenlik Paradigması // https://www.ankasam.org/guney-kafkasya-ve-yeni-guvenlik-paradigmasi26690/

həmrəyliyə xüsusi əhəmiyyət verir // https://www.elibrary.az/docs/qazet/qzt2017_831.htm

46. Ikitərəfli Münasibətlər // https://islamabad.mfa.gov.az/az/content/3/ikiterefli-munasibetler

47. İlham Əliyev Pakistan Senatının müdafiə komitəsinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib // https://president.az/articles/16568

48. İlham Əliyev Pakistan Senatının sədr müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir // https://president.az/articles/9516

49. İlham Əliyev Pakistanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib // https://president.az/articles/41095

50. İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Nəvaz Şərif ilə görüşüb // https://president.az/articles/22961

51. İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib // https://president.az/articles/17942

52. İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrini qəbul edib // https://president.az/articles/29128

53. İlham Əliyev Pakistanın maliyyə, gəlir, iqtisadi məsələlər, statistika və özəlləşdirmə nazirini qəbul edib // https://president.az/articles/15004

54. İlham Əliyev Pakistanın müdafiə sənayesi nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib // https://president.az/articles/21176

55. İlham Əliyev Pakistanın xarici işlər nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib // https://president.az/articles/26095

56. İlham Əliyevin Pakistan Prezidenti Arif Alvi ilə görüşü olub // https://president.az/articles/34610

57. İlham Əliyevin Pakistanın Baş naziri ilə görüşü olub // https://president.az/articles/17559

58. İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) // https://www.economy.gov.az/article/iet/21545

59. İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) // https://www.mfa.gov.az/az/category/beynelxalq-teskilatlar/iqtisadi-emekdasliq-teskilati-iet

60. Mubariz Goyushlu: Azərbaycan-Türkiyə-Pakistan arasında hərbi-siyasi təşkilat qurulmasının zamanı çatıbmı? // https://kafkassam.com/mubariz-goyushlu-az%C9%99rbaycan-turkiy%C9%99-pakistan-arasinda-h%C9%99rbi-siyasi-t%C9%99skilat-qurulmasinin-zamani-catibmi.html

61. Muslim Majority Countries 2022 // https://worldpopulationreview.com/country-rankings/muslim-majority-countries

62. Pakistan Azərbaycanın strateji müttəfiqi olacaqmı? // https://www.astna.biz/ext/news/2018/12/subsc/geo-asia/az/528.htm

63. Pakistan Ermənistanı dövlət kimi tanımadığını bəyan etdi // https://bizim.media/az/region/23483/pakistan-ermenistani-dvlet-kimi-tanimadiini-beyan-etdi/

64. Pakistan sends humanitarian aid to Azerbaijan // https://report.az/en/domestic-politics/pakistan-sends-humanitarian-aid-to-azerbaijan/

65. Pakistan: Facts & Stats // https://www.britannica.com/facts/Pakistan

66. Pakistan-Azərbaycan əlaqələri: Tağıyev yoxsa Səfəvilər // https://newscenter.az/2020/12/28/pakistan-azrbaycan-laqlri-tagiyev-yoxsa-sfvilr.html

67. Sahibə Qafarova: “Pakistanla Azərbaycanın münasibətləri strateji müttəfiqlik səviyyəsindədir” // https://yenicag.az/sahibe-qafarova-pakistanla-azerbaycanin-munasibetleri-strateji-muttefiqlik-seviyyesindedir/embed

68. Sedanur Şeyban: “Üç Kardeş- 2021” Türkiye, Azerbaycan Ve Pakistan Ortak Tatbikatinin Düşündürdükleri // https://kafkassam.com/sedanur-seyban-uzmani-uc-kardes-2021-turkiye-azerbaycan-ve-pakistan-ortak-tatbikatinin-dusundurdukleri.html

69. Səfəvilər dövründən başlanan dostluq // https://strateq.az/siyaset/159185/səfəvilər-dovrundən-baslanan-dostluq.html

70. Technically Recoverable Shale Oil and Shale Gas Resources: An Assessment of 137 Shale Formations in 41 Countries Outside the United States // http://www.eia.gov/analysis/studies/worldshalegas/pdf/fullreport.pdf?zscb=75960731

71. Turkey, Azerbaijan, Pakistan launch ‘Three Brothers’ joint military exercises // https://www.arabnews.com/node/1928836/middle-east

72. Türkiye-Azerbaycan-Pakistan askeri tatbikatı Yunan basınında // https://www.aksam.com.tr/dunya/turkiye-azerbaycan-pakistan-askeri-tatbikati-yunan-basininda-tehlikeli-buldular-orduyu-uyardilar/haber-1203576

73. Türkiye-Azerbaycan-Pakistan’dan Gövde Gösterisi: Üç Kardeş-2021 Tatbikatı // https://www.ankasam.org/turkiye-azerbaycan-pakistandan-govde-gosterisi-uc-kardes-2021-tatbikati/

74. Üç Kardeş tatbikatı karşısında şer odakları düğmeye bastı // https://www.nothaber.com/dunya/uc-kardes-tatbikati-karsisinda-ser-odaklari-dugmeye-basti-270070

75. What’s behind the growing Azerbaijan-Pakistan-Turkey friendship? // https://www.trtworld.com/magazine/what-s-behind-the-growing-azerbaijan-pakistan-turkey-friendship-43259

76. Yeni geosiyasi reallıqlar fonunda Azərbaycan-Türkiyə-Pakistan strateji müttəfiqliyi // https://xalqqazeti.com/mobile/az/news/82068

77. Азербайджан и Пакистан обсудили расширение военного сотрудничества // https://www.aa.com.tr/ru/мир/азербайджан-и-пакистан-обсудили-расширение-военного-сотрудничества/2281225

78. Военная Доктрина Азербайджанской РЕСПУБЛИКИ // http://eurasian-defence.ru/?q=node/30532

79. Ильхам Алиев принял делегацию, возглавляемую министром оборонной промышленности Пакистана // https://ru.president.az/articles/21176

80. Истребители JF-17 Thunder обеспечат Азербайджану абсолютное превосходство в воздухе – ЭКСКЛЮЗИВ // https://armiya.az/ru/news/140388/

81. Пилоты ВВС Азербайджана совершают тренировочные полеты на самолетах «Super Mushshak», купленных у Пакистана // http://interfax.az/view/763980